Günəş Şərqdən doğur!

№ 68 (5349), 2021-ci il

Qiymәti 40 qәpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 20 aprel 2021-ci il (çərşənbə axşamı)




## Yoluxma sayı 1000-dən aşağı düşdü

Analiz nümunələri müsbət çıxan 29 nəfər vəfat edib

(Səh.8)

**Günün içindən...**



## Şuşada heç bir problem yoxdur

Prezident İlham Əliyev azad edilən ərazilərin elektrik təchizatı ilə maraqlanıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünən Bakının Suraxanı rayonunda "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin (ASC) yenidən qurulan 220/110/10 kilovoltluq "Hövsan" yarımstansiyasının açılışında iştirak edib.**

Dövlətimizin başçısına yenidən qurulan "Hövsan" yarımstansiyası barədə məlumat verilib.

(səh.2)

### "Ali təhsil haqqında" qanun layihəsi hazırlanıb



Azərbaycanda "Ali təhsil haqqında" qanun layihəsi hazırlanıb.

(səh.7)

# Hələ də peyvəndə inanmayanlar var



## Bizdə də Türkiyədəki kimi qruplar yaradıb maarifləndirmə işi aparılmalıdır

**Peyvənddən çəkinənlər var. Səbəbləri də müxtəlif göstərirlər.** Yaşlılar "bundan sonra peyvənd nəyimə lazımdır?!", gənclər "peyvəndə ehtiyacımız yoxdur", yoluxub sağalanlar "onsuz da yoluxub qurtarmışıq" deyib peyvənddən imtina edir. Bəzi xroniki xəstələri, peyvəndləmə dair tibbi göstəriş olmayanlar da mövcuddur.

(səh.4)

## Mayın 9-dan 16-dək ictimai nəqliyyat işləməyəcək

Ramazan bayramı ilə əlaqədar iş günlərinə və karantin rejiminə dəyişiklik edilib

(səh.3)



### Minalarla bağlı müraciət Yerevana ünvanlanmalıdır

"Kreml BMT-yə müraciət etməklə sadəcə manevr edir"

(səh.3)

### Miqrantlarla bağlı sərt qərar ajiotaj yaradacaq

Rusiya ərazisində qeyri-qanuni yaşayan azərbaycanlılar 15 iyunu gözləməli deyillər

(səh.8)

### Terrorçulara qarşı kompromisdən söhbət gedə bilməz

Rəsmi Bakı öz mövqeyində qəti olmalıdır

(səh.9)

### Qara dəniz qarşıdurma meydanına çevrilib

Ankara ehtiyatlı davranır, tədbirlərini görür

(səh.10)



### "Gözüm pəncərələrdə qalır, Maisi axtarıram..."

Xüsusi təyinatlı şəhidin atası "Şərq"ə danışdı

(səh.9)

### Ermənistan ordusu qocaların ümidinə qalıb

Yaşı 63-ə qədər olan vətəndaşlar müqavilə əsasında hərbi xidmət göstərə biləcəklər



(səh.6)

# Şuşada heç bir problem yoxdur

## Prezident İlham Əliyev azad edilən ərazilərin elektrik təchizatı ilə maraqlanıb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünən Bakının Suraxanı rayonunda "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin (ASC) yenidən qurulan 220/110/10 kilovoltluq "Hövsan" yarımstansiyasının açılışında iştirak edib.

Dövlətimizin başçısına yenidən qurulan "Hövsan" yarımstansiyası barədə məlumat verilib.

Bildirilib ki, 45 il əvvəl tikilən "Hövsan" yarımstansiyası müasir səviyyədə yenidən qurulub, buradakı avadanlıqlar yeniləri ilə əvəz olunub. Yarımstansiya "Şimal" Elektrik Stansiyasında istehsal olunan elektrik enerjisinin ötürülmə keyfiyyətinin artırılmasında, "Abşeron", "Böyükşor", "Suraxanı", "Ramana", "Əhmədli", "Qala", "Zığ" yarımstansiyaları ilə əlaqələnməklə Bakı və Abşeron yarımadasının, xüsusən də Suraxanı, Günəşli, Əhmədli ərazilərinin elektrik enerji təchizatında mühüm rol oynayır.

Energetika sektorunun müasir tələblər səviyyəsində inkişafı, vətəndaşların enerji resurslarına əlçatanlığının və məmnunluğunun təmin olunması Prezident İlham Əliyevin sosial-iqtisadi siyasət kursunun prioritet hədəfləri sırasındadır. Postkonflikt dövründə isə işğaldan azad edilən ərazilərdə gedən bərpa quruculuq işləri dövlətimizin başçısının xüsusi diqqətindədir.

**Prezident İlham Əliyev:** Qarabağda işlər necə gedir?

**"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev:** Çox gözəl gedir, Şuşa hazırdır. Açılışa da hazırdır. Mən məruzə etmişdim ki, iki nömrəli xətt hazırdır.

**Prezident İlham Əliyev:** Bilirəm, xətti çəkmisiniz.

**Baba Rzayev:** Şükürbəyli də hazırdır, Şuşa da hazırdır. Füzuli yarımstansiyasının xətti hazırdır, ay yarıma da özü hazır olacaq.

**Prezident İlham Əliyev:** Bəs ermənilərin dağıtdıqları o su elektrik stansiyalarının vəziyyəti necədir? İşlər gedir orada?

**Baba Rzayev:** Cənab Prezident, "Suqovuşan 1"i və "Suqovuşan 2"ni bir həftəyə Sizin ali diqqətinizə təqdim edəcəyəm, hazırdır, işə salmışıq, test gedir.

**Prezident İlham Əliyev:** Bəs, Kəlbəcər rayonunda?

**Baba Rzayev:** Orada bir az araşdırmalar gedib, ancaq müəyyənləşdirməmişik. Yol məsələsi, oraya avadanlıqların daşınması bir az çətinlik törədir. Lakin yarımstansiyanın tikintisi gedir.

**Prezident İlham Əliyev:** İndi hava şəraiti yaxşılaşıb. Yəqin ki, may ayından oraya getmək daha asan olacaq.

**Baba Rzayev:** Biz oraya Daşkəsəndən, Murovdan təxminən 200 dirəkli xətt çəkəcəyik, onun artıq 100-ü qoyulub. Ən ağır yeri keçmişik.

**Prezident İlham Əliyev:** Bəs orada, azad edilmiş torpaqlarda xidmət edən hərbçilərin elektrik təchizatı normaldır?

**Baba Rzayev:** Hər yerə verilib.

**Prezident İlham Əliyev:** Şuşada da heç bir problem yoxdur.

*Qeyd edək ki, son 3 ilə qədər Bakı və Abşeron yarımadasında sistem əhəmiyyətli 220 kilovoltluq 5 yarımstansiya fəaliyyət göstərirdi ki, onların da 4-ü istismar müddətini başa vurub. Son iki ildə isə yeni "Böyükşor" yarımstansiya tikilib və beləliklə, 220 kilovoltluq yarımstansiyaların sayı 6-ya çatdırılıb. Eyni zamanda, istismar müddətini bitirən sistem əhəmiyyətli 220 kilovoltluq dörd yarımstansiyanın üçü - "Müşfiq", "Xırdalan" və "Hövsan" yarımstansiyaları yenidən qurulub, "Nizami" yarımstansiyasında isə işlər yaxın vaxtlarda başa çatdırılacaq.*

*Prezident İlham Əliyev "Hövsan" yarımstansiyasını işə salıb.*

Dövlətimizin başçısına yenidənqurulan 110/35/6 kilovoltluq "Maştağa" yarımstansiyası barədə də məlumat verilib. Bildirilib ki, 1949-cu ildə tikilən yarımstansiyanın istismar müddəti bitdiyi üçün potensial qəza mənbəyinə çevrilmişdi. Qısa zamanda görülən işlər sayəsində yarımstansiyanın əvvəlki gücü geri qaytarılıb, tam yenidən qurularaq etibarlılığı və dayanıqlılığı artırılıb, istehlakçıların fasiləsiz və keyfiyyətli enerji təchizatına zəmin yaradılıb. Yenidən qurulan "Maştağa" Yarımstansiyası Maştağa, Buzovna, Bilgəh, Nardaran qəsəbələrini, Savalan, "Albalılıq" yaşayış massivlərini, dənizkənarı sanatoriya, xəstəxana, otellər və digər obyektlər də daxil olmaqla Sabunçu və Xəzər rayonlarının 150 min nəfərə çatan əhalisinin elektrik enerjisi ilə etibarlı təminatına imkan verəcək.

*Prezident İlham Əliyev məsafədən idarə olunan SCADA dispetçer idarəetmə sistemi vasitəsilə "Maştağa" yarımstansiyasını da işə salıb.*



## Bakıda parkda abadlıq işlərinə 5 milyon manat ayrılıb

**Prezident İlham Əliyev Bakı şəhərinin Xətai rayonu ərazisində yerləşən Nizami adına mədəniyyət və istirahət parkında abadlıq işlərinin həyata keçirilməsi ilə əlaqədar tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncamla Bakı şəhərinin Xətai rayonu ərazisində yerləşən Nizami adına mədəniyyət və istirahət parkında abadlıq işlərinin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Bakı Şəhər İcra Hakimiyyətinə ilkin olaraq 5,0 (beş) milyon manat ayrılıb.

## Nazir müavini işdən azad edildi, səfir göndərildi



**Prezident İlham Əliyev Ramiz Həsənovun Azərbaycan Respublikasının İspaniya Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən Ramiz Ayvaz oğlu Həsənov Azərbaycan Respublikasının İspaniya Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilir.

Dövlət başçısının digər sərəncamı ilə Ramiz Ayvaz oğlu Həsənov Azərbaycan Respublikası xarici işlər nazirinin müavini vəzifəsindən azad edilib.

Sərəncam imzalandığı gündən qüvvəyə minir.

## AŞPA Prezidenti bəzi ölkələrin koronavirusdan sui-istifadə etdiyini bildirib



**"COVID-19 bizim fundamental azadlığımıza, günlük həyatımıza çox təsir göstərib. Ancaq bəzi üzv ölkələr sanitar səbəblərdən başqa, sui-istifadə hallarından istifadə edərək, insanların azadlıqlarını daha da məhdudlaşdırıb".**

APA-nın Britaniya bürosunun verdiyi xəbərə görə, bu sözləri AŞPA Prezidenti Rik Daems dünən qurumun yaz sessiyasının açılışında deyib.

O qeyd edib ki, AŞPA bu problemləri təkcə müzakirə etmək yox, həm də həll etmək, həmin ölkələrlə birgə işləmək məqsədi güdür.

R. Daems bildirib ki, koronavirusa görə AŞPA-nın komitə sədrləri 15 aydır, nə hibrid formada, nə də üzbəüz hər hansı görüş keçirib.

# Səməd Seyidov etiraz etdi

### "Əsir mövzusunun AŞPA-da müzakirəyə çıxarmaq cəhdləri sülh üçün daha çox maneə yaradır"



**"AŞPA prezidenti Rik Daemsin də dediyi kimi, biz təkcə ölkələr haqqında danışmamalı, həm də ölkələrlə danışmalıyıq. Bu, çox vacibdir. O baxımdan bu cür debat mövzuları ilə AŞPA-nı səhv istiqamətə çəkmək istəyirlər".**

APA-nın Britaniya bürosunun verdiyi xəbərə görə, bu sözləri Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı (AŞPA) nümayəndə heyətinin rəhbəri Səməd Seyidov AŞPA-nın dünən başlayan yaz sessiyasında telekonfrans vasitəsilə çıxışında deyib.

O, erməni hərbi əsirləri ilə bağlı mövzunun AŞPA-da debat mövzusu olaraq müzakirə edilməsi təklifinə etiraz edib: "Azərbaycan hər zaman sülh istəyib və artıq bunun üçün əlindən gələnin ən yaxşısını edir. Bu cür debat mövzuları sülh üçün maneələr yaradır. Bu cür mövzuların detallarını bilmədən müzakirəyə çıxarmaq cəhdləri məsələni daha da böyüdür, sülh üçün daha çox maneə yaradır".

*Qeyd edək ki, Azərbaycanda guya erməni hərbi əsirlərin saxlanılması barədə məsələ Ermənistandan olan deputatların təklifi ilə AŞPA-nın bu gün başlayan yaz sessiyasının gündəliyinə daxil edilib.*

# Minalarla bağlı müraciət Yerevana ünvanlanmalıdır

## “Kreml BMT-yə müraciət etməklə sadəcə manevr edir”



Rusiyanın Müdafiə naziri Sergey Şoyqu Qarabağa görə Qərb ölkələrini ittiham edib. Nazir bildirib ki, BMT Dağlıq Qarabağın minalardan təmizlənməsində iştirakla bağlı Rusiyanın təklifinə cavab verməyib.

Rusiyalı nazirin sözlərinə görə, həmin bölgə tamamilə minalanıb. Ona görə də orada normal fəaliyyət və yaşam mümkün deyil: ”Ora əhali qayıda bilmir. Hələ heç kim bölgəyə qayıtmayıb”. Dəfələrlə gündəmə gətirilib ki, minalanmış ərazilərin təmizlənməsi və ermənilərin əlində olan xəritələrin alınması üçün həm beynəlxalq təşkilatlara, həm də Rusiya sülhməramlılarına müraciət olunub. Vurğulanıb ki, bu gedişlə işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsi prosesi çox uzun çəkə bilər. Hətta minalarla bağlı xəritələrin Rusiya sülhməramlılarında olduğu da iddia edilir. O səbəbdən minalanmış ərazilər məsələsində Moskvanın səmimiyyətinə inam azdır.

**Məsələni ”Şərq”ə dəyərləndirən Cənubi Qafqaz Sülh və Münaqişə İnstitutunun rəhbəri Məhəmməd Əsədullazadə deyib ki, Ermənistan 30 il ərzində işğal olunmuş ərazilərin çox hissəsini minalayıb.** Analitikin sözlərinə görə, Yerevan hökuməti Qarabağ müharibəsindən sonra minalanmış ərazilərin xəritəsini verməməklə ilk növbədə humanitar böhran yaradır: ”Bu cür davranış Ermənistanın sülhün əldə edilməsində avanturist yanaşmasını göstərir. Rusiya Ermənistana təsir imkanına malik ölkədir. Amma təəssüf ki, bunu etmir. Çünki Moskvada Qarabağ siyasətində səmimi deyil. Kreml BMT-yə müraciət etməklə sadəcə manevr edir. Müraciət Yerevana edilməlidir və xəritələr tələb olunmalıdır. BMT kimi Qərb təşkilatları yaxşı bilirlər ki, Ermənistandan xəritələri zorla ala biləcək yeganə güc Moskvadır. Ona görə də bu müraciəti ciddi qəbul etmir. Ümumiyyətlə, Rusiya bu məsələyə ikili standartlardan yanaşır və məqsədyönlü şəkildə Azərbaycan-Ermənistan arasında böhranı davam etdirir”.

**İsmayıl Qocayev**



# Mayın 9-dan 16-dək ictimai nəqliyyat işləməyəcək

### Ramazan bayramı ilə əlaqədar iş günlərinə və karantin rejiminə dəyişiklik edilib

**Nazirlər Kabinetinin Qərarına əsasən, Azərbaycan Respublikasının ərazisində iş və istirahət günlərinin ardıcıllığını təmin etmək məqsədilə 2021-ci ilin 11 və 12 may iş günləri ilə müvafiq olaraq 8 may və 16 may istirahət günlərinin yerləri dəyişdirilib.**

Bu barədə Nazirlər Kabinetindən bildirilib.

Bununla da Ramazan bayramı günləri də daxil olmaqla mayın 9-dan 15-dək qeyri-iş günləri olacaq. İş mayın 16-dan başlayacaq.

Nazirlər Kabinetinin digər Qərarına əsasən, 9 may saat 00:00-dan 16 may saat 06:00-dək ölkə ərazisində ictimai nəqliyyatın fəaliyyəti dayandırılacaq. Ölkə ərazisində 9 may saat 00:00-dan 16 may saat 06:00-dək ictimai nəqliyyatın fəaliyyəti dayandırılacaq.

# “Bu seçki Paşinyan üçün ölüm-qalım məsələsidir”

*”Paşinyanın komandasının Köçəryan və ətrafı ilə bağlı sensasiya xarakterli materialları ictimailəşdirəcəyi gözləniləndir”*



**”Ermənistan Təhlükəsizlik Şurası keçmiş qərargah rəisi Onik Qasparyanın ittihamlarına cavab olaraq bəzi məxfi sənədlərdən çıxarışları açıqlayıb”.**

**Bu barədə politoloq Elçin Mirzəbəyli sosial şəbəkədə yazıb.** Siyasi şərhçi bildirib ki, ötən ilin avqust ayının sonlarında Ermənistanda könüllü dəstələrin yaradılması barədə qərar qəbul edilib və bununla bağlı parlamentə müvafiq qanun layihəsi təqdim olunub: ”Ermənistan Təhlükəsizlik Şurasının açıqlamasından bəlli olur ki, bu təklif sabiq qərargah rəisi tərəfindən irəli sürülüb. Protokollardan çıxarışlar isə belə düşünməyə əsas verir ki, Onik Qasparyan real vəziyyətlə bağlı baş nazirə yalan məlumatlar verib. Ya da onun özü rəhbərlik etdiyi silahlı qüvvələr haqqında dəqiq məlumata malik olmayıb. Yəni Ermənistan uzun illərdən bəri dünyanı aldatmağa çalışdığı kimi, bu ölkənin silahlı qüvvələrindəki vəzifəli şəxslər də biri-birlərini aldada-aldada gediblər və gəlib çatıblar yolun sonuna... Xatırladım ki, Onik Qasparyan Ermənistanın silahlı qüvvələrinin rəhbərliyinə Robert Köçəryan tərəfindən gətirilib. Onun son açıqlamalarından da görünür ki, sabiq qərargah rəisi sabiq prezidentin - hərbi-cinayətkar xunta başçısının əlinə oynayır”.

*Analitik vurğulayıb ki, prosesin gedişi göstərir ki, seçki yaxınlaşdıqca qarşılıqlı ittihamlar artacaq:* ”Seçki kampaniyasının əsas istiqamətlərini 44 günlük müharibənin nəticələri təşkil edəcək. Paşinyanın komandasının isə Köçəryan və ətrafı ilə bağlı sensasiya xarakterli materialları ictimailəşdirəcəyi gözləniləndir. Çünki bu seçki onlar üçün ölüm-qalım məsələsidir”.

**İsmayıl**

# Rusiya-ABŞ gərginliyi savaşla başa çatmayacaq

### Baydenin açıqlamaları daha çox daxili auditoriyaya yönəlib



**ABŞ-Rusiya qarşıdurması dərinləşir. Amerika hazırda Rusiyaya qarşı psixoloji və informasiya hücumuna keçib, sanksiyalar tətbiq etməkdədir. Rusiya diplomatları Amerikadan, Polşadan, Çexiyadan qovulub.**

Rusiya da adekvat addımlar atır. Ötən gün Çexiyanın Moskvadakı səfirliyinin 20 diplomatı ”persona non grata” elan edilib. Böyük Britaniya və Fransa da gərginliyi artıracaq addımlar atmaqdadır. ABŞ Prezidenti Co Bayden Rusiya Prezidenti Vladimir Putinə yayda Avropada sammit keçirməyi təklif edib. O deyib ki, Putinlə danışarkən aralarındakı şəxsi, birbaşa təmasın xüsusilə daha effektiv münasibətlər üçün çox vacib olduğuna əmin olub: ”O da bununla razılaşdı. Bu baxımdan, ölkələrimiz qarşısında duran bir sıra məsələləri müzakirə etmək üçün bu yay Avropada sammit çərçivəsində şəxsən görüşməyi təklif etdim”. Onun sözlərinə görə, ”hazırda komandalar bu fürsətin mümkünlüyünü müzakirə edirlər”. Ağ Evin rəhbəri yüksək səviyyəli görüş çərçivəsində strateji sabitliklə bağlı dialoqa başlamağı da təklif edib. Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova isə deyib ki, Rusiyaya qarşı informasiya müharibəsinin arxasında Vaşinqton dayanır. Onun fikrincə, indiki gərginliyin məqsədi Qərb ölkələrində yığılıb qalan problemlərdən yayınmaqdır: ”Rusiya - həmin bu kimi hallarda dövriyyəyə buraxılmış, sınanmış bir alətdir. Əlbəttə, bunların arxasında sözsüz ki, ABŞ dayanır. NATO-da hər kəs üzərində rəhbərlik edən ölkə...”. Ekspertlərə görə, Co Bayden Moskvanı informasiya savaşı və psixoloji təzyiqlərlə məğlub etmək fikrindədir. Formalaşan ABŞ-NATO koalisiyasının da əsas məqsədi Rusiyanı çökdürmək, məğlubiyyətin eşiyinə gətirməkdir.

**İki cəbhənin qarşıdurmasını ”Şərq”ə dəyərləndirən politoloq Azər Rəşidoğlu Rusiya-ABŞ gərginliyinin savaşla başa çatacağını düşünmür. Analitikin qənaətincə, bu ölkələrin əməkdaşlıq üçün müştəviləri çoxdur:** ”İki ölkənin iqlim dəyişiklikləri, Yaxın Şərqdəki proseslər və ”COVİD-19”-la mübarizədə əməkdaşlıq imkanları var. Sadəcə, Bayden Putinin nəzərinə çatdırır ki, Rusiyanın ABŞ-dakı ötən prezident seçkilərinə müdaxiləsini bağışlamayacaq. Vaşinqton münasibətlərin inkişafında maraqlıdır, lakin özünü elə göstərir ki, guya, yeni administrasiyanın Moskva ilə körpü qurmaq niyyəti yoxdur. Lakin Baydenin bəyanatları daha çox daxili auditoriyaya yönəlib. Bu gün hamını düşündürən bir sual var: - Baydenin açıqlamasının qarşılığında Kreml hansı yollara əl atacaq?”.

*A.Rəşidoğlu bildirib ki, Böyük Britaniya və ABŞ eyni anda Çin və Rusiyaya qarşı yeni planlar hazırlayırlar:* ”ABŞ-ın müttəfiqi Britaniya da gələcək illər üçün planlaşdırılan yeni hərbi-siyasi doktrinasını açıqlayıb. Baş nazir Boris Conson xarici və daxili siyasətlə bağlı ölkəsinin yeni doktrinasını elan edib. Sənəddə Conson Çini Britaniya üçün sistem çağırışı, Rusiyanı isə təhdid adlandırıb. Sənəddə qeyd edilib ki, Moskva Böyük Britaniya üçün kəskin və birbaşa təhdid olaraq qalmaqda davam edir və çox güman ki, Avropadakı fəaliyyətinin qısa müddətdə artması ehtimalı var. Vəziyyət dolaşıqdır. Lakin Rusiya və ABŞ-ı savaşa sövq edəcək qədər deyil”.

**İsmayıl Qocayev**



# Kreml Qərbə barmaq silkələdi

## *Mariya Zaxarova: "Rusiyaya qarşı informasiya müharibəsinin arxasında Vaşinqton dayanır"*

"Vətəndaşlarımızın ABŞ səfirliyinə işə qəbulu "verbovka" elementidir". Bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova "Rossiya 1" telekanalında yayımlanan "60 minut" verilişində bildirib. Rusiya XİN rəsmisi qeyd edib ki, bundan sonra ABŞ səfirliyinin bu cür imkanı olmayacaq:

"ABŞ səfirliyi ilə bağlı bir maraqlı detal var ki, bu, hamının gözündən yayınıb. Məsələ ondadır ki, amerikalılar səfirliklərinin olduğu ölkədən işçi qəbul edən zaman dərhal belə bir şərt irəli sürürlər: ABŞ-da yaşayış üçün icazə verirlər, daha sonra isə vətəndaşlıq və buna uyğun olaraq maaş, bonus ödənişləri... Bunu "verbovka" işinin elementi kimi qiymətləndirmək olar. Bu və ya digər hallarda əmək müqaviləsi ilə işləməyə gələn insanlar öz gələcək dövlətinə işləməyə başlayır. Onların gələcək dövlətlərindəki statusu isə həmin insanların gördükləri işin keyfiyyətindən asılıdır. İndi nə ABŞ-ın, nə də Çexiyanın ölkəmizin vətəndaşlarını öz səfirliklərində işə götürmək imkanları var".

**Mariya Zaxarova bildirib ki, Çexiya Moskvaya qarşı fəaliyyətinə görə böyük əvəz ödəyib:**

"Bu, Rusiya ilə ikitərəfli münasibətlərə, öz diplomatik xidmətinə zərbədir. Bu gün 20 çex diplomat Rusiyanı tərk etməlidir. Təəssüflər olsun ki, ailələri ilə birlikdə, çünki diplomatik praktikada belə qəbul olunub. Bu, bizim seçimimiz deyil, cavab tədbirləridir. ABŞ kimi, rəsmi Praqaya da diplomatik missiyaya personal üçün Rusiya vətəndaşlarından işə götürmək qadağan olunub. Bu isə onlar üçün çox ciddi məsələdir. Qeyd edək ki, Çexiyanın Baş naziri Andrey Babiş aprelin 17-də bəyan edib ki, 2014-cü ildə Vrbetitsada hərbi anbarda partlayış baş verməsində Rusiya xüsusi xidmət orqanlarının əli olmasından şübhələnirlər. Baş nazirin birinci müavini, Xarici işlər naziri Yan Hamaçek isə bildirib ki, 18 rusiyalı diplomat 48 saat ərzində ölkədən çıxarılacaq. Rusiya buna cavab olaraq aprelin 18-də Çexiyanın 20 diplomatının ölkəni tərk etməsi üçün 48 saat vaxt verib.

*Zaxarova vurğulayıb ki, Rusiyaya qarşı informasiya müharibəsinin arxasında Vaşinqton dayanır. Bütün bunlar Qərb ölkələrində yığılıb qalan problemlərdən yayınmaq üçün edilir:* "O ki qaldı Çexiyaya, Avropa Birliyi ölkələrində və ümumiyyətlə, Qərbdə problemlərin olduqca çox olduğunu yaxşı başa düşmək lazımdır. Bu problemlərin üstünü örtmək üçün təcili hansısa informasiya-siyasi xarakterli tədbirlərin görülməsi lazımdır. Rusiya - həmin bu kimi hallarda dövriyyəyə buraxılmış, sınanmış bir alətdir. Əlbəttə, bunların arxasında sözsüz ki, ABŞ dayanır. NATO-da hər kəs üzərində rəhbərlik edən ölkə, bu qərb "meynstrim"inin tonunu təyin edən ölkə...".

**İsmayıl**

# Hər ay hər vətəndaşa 10 maska pulsuz verilməlidir

## İndiki vəziyyətdə maska nəinki virusdan qorumur, hətta yeni xəstəliklər üçün şərait yaradır

**"Camaat polisin, cərimənin qorxusundan və pulsuzluqdan 1 maskanı 40 gün taxır"**



**"Keçən ilin mart ayından bu ilin martına qədər ölkədə 77 mln. 600 min tibbi maska satılıb. Ölkə əhalisinin 10 yaşa qədər olan vətəndaşlarının maska taxmadığını, amma məktəblər açıq olanda taxırdılar - nəzərə alsaq, deməli, təqribən, 8,5 mln. əhali il ərzində maska taxmalı idi. Tibbi maskaların hər 2-3 saatdan bir dəyişmək lazım olduğu deyilir. Yəni ölkədə 1 il ərzində hər vətəndaş gün ərzində ən azı 3 maska dəyişməli idi. Deməli, gündə 8,5*3= 25,5 mln. ədəd, ayda 765 mln. ədəd, ildə 80 mln. ədəd maska istifadə edilməli idi".**

*Bu sözləri iqtisadçı-ekspert, ReAL Partiyasının icraçı katibi Natiq Cəfərli deyib.*

Məsələ barədə "Şərq"ə danışan N.Cəfərlinin fikrincə, tələblərə yaradılan şərait üst-üstə düşmür: "Bizdə 1 ilə 77,6 mln. maska satılıb. Yəni ilə 1 nəfərə 9 maska düşür. Deməli, orta statistik vətəndaş 40 günə 1 maska istifadə edib. Bu, bilirsiz nə deməkdir?! Maskadan belə istifadə nəinki virusdan qorumur, hətta yeni xəstəliklər üçün şərait yaradır! Əhaliyə pulsuz maska paylanılmalıdır ki, qapalı məkanlarda, nəqliyyatda maska taxmaq həm zəruri, həm də sağlamlıq üçün təhlükəsiz olsun. Hər vətəndaşa, heç olmasa, hər ay 10 maska pulsuz verilməlidir. Camaat polisin, cərimənin qorxusundan və pulsuzluqdan 1 maskanı 40 gün taxır. Bu zülmdür, gələcək böyük sağlamlıq problemlərinin təməlidir. Və açıq havada maska taxmaq tələbi ləğv edilməlidir!".

**Kənan**

# Hələ də peyvəndə inanmayanlar var

## Bizdə də Türkiyədəki kimi qruplar yaradıb maarifləndirmə işi aparılmalıdır

Peyvənddən çəkinənlər var. Səbəbləri də müxtəlif göstərirlər. Yaşlılar "bundan sonra peyvənd nəyimə lazımdır?!", gənclər "peyvəndə ehtiyacımız yoxdur", yoluxub sağalanlar "onsuz da yoluxub qurtarmışıq" deyib peyvənddən imtina edir. Bəzi xroniki xəstəlikləri, peyvəndləmə dair tibbi göstəriş olmayanlar da mövcuddur.

Amma bunlarla yanaşı, çəkingən tipli insanlar var ki, peyvənd vurdurmaqdan qorxduğunu açıq etiraf edir. Peyvəndin orqanizmdə hansısa fəsadlar yarada biləcəyinə inandırılıb və əksini sübut edən, başa salan da yoxdur. Bu isə "COVİD-19"-a qarşı peyvəndləmədə ümumi mənzərənin müsbətə dəyişməsinə mane olur. Tibb mütəxəssisləri bildirir ki, ölkə üzrə peyvəndləmə 80 faiz təşkil edəcəyi halda kollektiv immunitetin yaranmasından danışmaq olar. Və yalnız bu zaman karantin qaydalarında yumşalmaya gedilə bilər. Bəs, insanları necə inandırmalı? Qardaş Türkiyədə bir üsul düşünüblər. Türkiyənin Səhiyyə naziri Fəxrəddin Qoca bildirib ki, xüsusi həkim heyətləri yaradılacaq, onlar ailə həkimləri ilə birlikdə qapı-qapı gəzəcək, vətəndaşlara peyvəndin zəruriliyini anladacaq, peyvənd vurdurmanın sağlamlıq baxımından vacib olduğuna inandırmağa çalışacaq. Maarifləndirmə və təşviqetmə işləri aparmaqla daha çox vətəndaşın peyvənd olunmasına səy göstərəcəklər.

**Bizim ölkədə də belə xüsusi həkim briqadaları yaradılmalıdırmı? Məsələ ilə bağlı "Şərq"ə danışan həkim-infeksionist, hazırda Şamaxı Diaqnostika Mərkəzində əhaliyə tibbi xidmət göstərilməsində iştirak edən Mərdan Əliyev qeyd etdi ki, bu, çox müsbət təşəbbüsdür:**





**Mərdan Əliyev:** *"Mən çox şad olardım ki, bizdə də belə xüsusi həkim briqadaları yaradılsın, onlar yerli poliklinika şöbələrinin həkimləri, ərazi üzrə həkimlərin iştirakı ilə vətəndaşlarla görüşsünlər və onlara peyvəndin vacibliyi haqda danışsınlar"*

- Qardaş ölkədə tətbiqinə hazırlaşılan təşəbbüs çox yaxşıdır və peyvəndləmə işində müsbət təcrübəyə yol aça bilər. Şəxsən mən bu təcrübədən bizdə də istifadə edilməsini arzulayıram. Çünki bizim ölkədə də peyvənd olunmaqdan çəkinənlər var. Bilirik ki, peyvəndlərlə bağlı müxtəlif şayiələr, əsassız söz-söhbətlər yayılır. İnsan da mənfi xəbərlərə inanmağa daha çox meyillidir. Pisə daha çox inanır, nəinki yaxşı, müsbət məlumata. İnsanları inandırmaq lazımdır, bunun üçün də maarifləndirmə mütləqdir. Hazırda biz Şamaxı şəhər Diaqnostika Mərkəzində çalışırıq. Burda peyvəndləmə ilə bağlı o qədər də problem yaşanmır. İnsanları başa salırıq, ailəsində, yaxın ətrafında, qohum-əqrəbada koronavirusa tutulanlar, sağalanlar, təəssüf ki, həyatını itirənləri misal çəkirik, insanlar özləri də artıq ətrafda baş verənləri daha çox anlayır, inanır və peyvənd olunmağa gəlirlər. Amma dediyim kimi, inanmayanlar da var və əsas vəzifə, əsas iş onları inandırmaqdır. Yalnız bu halda biz kütləvi peyvəndləməyə nail olduğumuzu söyləyə biləcəyik. Mən çox şad olardım ki, bizdə də belə xüsusi həkim briqadaları yaradılsın, onlar yerli poliklinika şöbələrinin həkimləri, ərazi üzrə həkimlərin iştirakı ilə vətəndaşlarla görüşsünlər və onlara peyvəndin vacibliyi haqda danışsınlar. Bir var, insan hardansa eşidir, məlumat oxuyur, bir də həkimin dilindən eşidir. Həkimə inam daha böyükdür.

**M.Əliyev qeyd etdi ki, hazırda peyvəndləmə işi nizamlı şəkildə davam etdirilir, lakin problem vaksinlərin ölkəyə çatdırılmasındadır:**

- Azərbaycan hökuməti indiyədək "CinoVac" və bir də "AstraZeneka" peyvəndlərinin ölkəyə idxalına nail olub. Yaxın zamanda "Pfizeyr", həmçinin Rusiyadan "Sputnik V" vaksinləri də Azərbaycana göndəriləcək. Deyərdim ki, problem peyvənddən imtina ilə yox, daha çox vaksin çatışmazlığı ilə bağlıdır.

Həkim bildirdi ki, hazırda əhalinin 40 yaşdan yuxarı hissəsinin peyvəndlənməsi aparılır. Uşaqlar hələ ki, vaksinasiyaya cəlb edilməyib. Eləcə də gənclər. Gənclər arasında peyvəndləməyə başlanılarsa, böyük ehtimalla 18 yaşdan yuxarı onlara vurulacaq. Ahıl vətəndaşlara isə, zərurət olduqda, dövlət proqramı çərçivəsində adətən evlərində xidmət göstərilir.

**Məlahət Rzayeva**

# Qarabağda anti-terror əməliyyatı gözləniləndir

“Qanunsuz və təhlükəli fəaliyyət separatçıların özbaşına görəcəyi iş deyil”

Separatçı ermənilər Qarabağdakı rus sülhməramlılarının məsuliyyət zonasına daxil yollarda "yeni nəzarət məntəqələri" yaratmaq niyyətinə düşüblər. Özünü "Qarabağ polis"inin rəisi kimi təqdim edən separatçı Artyom Arutyunyan Şuşa-Xankəndi magistral yolunda, həmçinin, Xankəndi-Şuşakənd nəzarət-keçid məntəqəsində olub.



İddia edilib ki, Qarabağda Azərbaycan tərəfinin müşahidəsi altına düşən ərazilərin monitorinqinin gücləndirilməsi planlaşdırılır. Bundan əvvəl isə rus sülhməramlılarının yaratdığı şəraitdən istifadə edərək Xankəndiyə qayıdan və separatçı fəaliyyətlərini davam etdirən qondarma ”daxili işlər naziri” Karen Sarkisyanın əmri ilə Şuşakənd-Dağyurd-Qırmızı Bazar yolu üzərində quraşdırılmış ”polis” nəzarət-buraxılış məntəqəsində növbətçilik gücləndirilib.

Heç şübhəsiz, Ermənistanın birbaşa dəstəyi ilə həyata keçirilən bu separatçı fəaliyyət 10 noyabr 2020-ci il bəyanatına ziddir və növbəti münaqişə ocağının yaranmasına xidmət edir. Bu isə bölgədə antiterror əməliyyatı keçirmək üçün Azərbaycana imkan verir.

## “Burada Rusiya sülhməramlılarının havadarlığı, bəlkə də birbaşa rolu və təlimatı var”

**AĞ Partiya sədri Tural Abbaslı ”Şərq”ə bildirib ki, bu cür qanunsuz və təhlükəli fəaliyyət separatçıların özbaşına görəcəyi iş deyil.** Partiya rəhbərinin fikrincə, burada Rusiya sülhməramlılarının havadarlığı, bəlkə də birbaşa rolu və təlimatı var: ”Rusiya özünün regionda qalmasını əbədiləşdirmək üçün bölgədəki konfliktin tam həllində maraqlı deyil. Əksinə, qondarma rejimin tör-töküntülərinə dəstək o anlama gəlir ki, Moskva mövcud problemin daha da mürəkkəb hal almasında maraqlıdır. Kreml artıq bitmiş və məhv olmuş bir rejimin qalıqlarından yenidən nəsə düzəldərək Azərbaycana qarşı təhdid yaratmaq istəyir. Özü isə ”sülh göyərçini” rolunda çıxış etmək həvəsindədir. Əlbəttə, buna qətiyyən imkan verməк olmaz. Konkret mövqeyimizi ortaya qoymalıyıq. Ultimativ qaydada həm Rusiyaya, həm də Ermənistana xəbərdarlıq mesajı verilməlidir. Beynəlxalq təşkilatlar separatçıların addımları ilə bağlı məlumatlandırılmalıdır. Əgər bu cür təxribatçı addımlar davamlı olarsa, Azərbaycan Ordusu dərhal Qarabağda anti-terror başlatmalıdır”.

T.Abbaslı vurğulayıb ki, 1989-cu ilin hadisələrinin təkrarlanmasına yol verməməliyik: ”O vaxtı da ermənilər buna bənzər hərəkət edirdilər, Xankəndinə gedən yollara ”nəzarəti” ələ keçirirdilər, azərbaycanlıları sıxışdırırdılar. Görünür, ermənilər müharibənin acı nəticələrini unutduqca yenidən dirçəlməyə cəhd göstərirlər. 44 günü düşmənə yenidən xatırlatmalıyıq. Sadəcə siyasi yollarla deyil, hərbi vasitələrlə də mövqeyimizi təkrarlamalıyıq. PUA-larımız qondarma erməni postlarını separatçılarla birgə məhv etməlidir”.

**İsmayıl Qocayev**

## Anar Məhərrəmov səfir vəzifəsindən geri çağırıldı



**Prezident İlham Əliyev A.A.Məhərrəmovun Azərbaycan Respublikasının İspaniya Krallığında və Andorra Knyazlığında fövqəladə və səlahiyyətli səfiri, eyni zamanda Ümumdünya Turizm Təşkilatı yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılması haqqında Sərəncam imzalayıb.**

Sərəncamla Anar Abel oğlu Məhərrəmov Azərbaycan Respublikasının İspaniya Krallığında və Andorra Knyazlığında fövqəladə və səlahiyyətli səfiri, eyni zamanda Ümumdünya Turizm Təşkilatı yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılır.

## “Gözlərimizlə gördük, dəhşətə gəldik”

Arye Qut: “Erməni vəhşiliklərinin tayı-bərabəri yoxdur”



**İsraildən olan bir qrup jurnalist işğaldan azad edilən Ağdam şəhərinə gəliblər.**

Jurnalist, tanınmış ictimai-siyasi fəal Arye Qut Trend-in Qarabağ bürosuna açıqlamasında gördüklərindən dəhşətə gəldiyini bildirib:

*”İşğalçı ermənilərin vəhşiliyi və vandalizm aktları ilə bağlı çox eşitmişdik. Lakin, bu ərazilərə əyani səfər etmək, vəziyyətlə şəxsən tanış olmaq bizi daha da üzdü, çünki vəziyyəti öz gözlərimizlə gördük, dəhşətə gəldik. Erməni vəhşiliklərinin tayı-bərabəri yoxdur”*

## Bu hələ başlanğıcdır

Rusiyaya qarşı sanksiyalar uzunmüddətli olacaq



**Rusiyanın vəziyyətinin getdikcə ağırlaşması heç kimə sirr deyil. Çünki ənənəvi rəqibləri, hətta düşmənləri ilə mübarizə aparmaqla yanaşı, həm də ”ağrımayan başına dəsmal bağlayır”.**

Daxildə əsas müxalif qüvvə olan Aleksandr Navalnı ilə qarşıdurma və ictimai rəydə hakimiyyətə qarşı mənfi rəyin yaranması, tutaq ki, öz işləridir. Bəs ABŞ-la olan münasibətlər? Ukraynaya, Belarusiyaya qarşı hegemon siyasət? Yəni Kreml, həqiqətənmi, özünü yeddibaşlı hesab edir?! Hərçənd həmin mifik qəhrəmanın da başına nələrin gəldiyini bilirik...

**Siyasi analitik Turab Rzayev düşünür ki, rəsmi Moskva indidən başına bir çarə qılmalıdır. O, bu barədə fikirlərini ”Şərq”lə bölüşdü:** ”Rusiya ciddi iqtisadi sanksiyalara məruz qalır. Fikrimcə, bu, uzunmüddətli olacaq. Və eyni ilə İran, Şimali Koreya kimi Rusiya da sanksiyalarla yaşamağa öyrəşəcək. Şimal qonşumuzun gələcək taleyini müəyyənləşdirən əsas amil ABŞ və Böyük Britaniyanın mövqeyidir. Belə ki, nə qədər qəribə görünsə də, Rusiyanın mövcudluğu və hətta bir az güclü olması həmin dövlətlərə sərf edir. Odur ki, onlar sözügedən rəqiblərini sıradan çıxarmaq istəmirlər”.

**Ekspert, həmçinin ikinci variantı da səsləndirdi:** ”Çin faktorunu da nəzərə almalıyıq. Əgər ABŞ və Britaniyanın bir nömrəli düşməni əvvəl Rusiyadırsa, indi Çindir. Rəsmi Pekinin güclənməsi Avropa dövlətlərini narahat edir. Belə olan halda ABŞ və Britaniya sonradan Çinlə mübarizə aparanda başqa rəqiblə qarşılaşmamaq üçün Rusiyanı vaxtından əvvəl neytrallaşdırmaq istəyə bilərlər”.

**Kənan**

# Sarkisyan Gürcüstanda böyük səhvə yol verdi

“Zurabişvili belə məqamda düzgün hərəkət edib və Sarkisyanın qeydlərini paylaşmaqla onun mesajlarını heçə endirib”



**Ermənistan Prezidenti Armen Sarkisyan Gürcüstanda səfərdə ikən prezident sarayının fəxri qonaqlar kitabında yazı ilə yanaşı Türkiyədəki Ağrı dağının konturları ilə rəsm çəkib.**

Bu fakt Gürcüstan Prezidenti Salome Zurabişvilinin həmin səhifənin fotoşəklini sosial şəbəkədə paylaşmasından sonra məlum olub. Türkiyənin Gürcüstandakı səfiri Fatma Ceren Yazqan Ermənistan Prezidenti Armen Sarkisyanın Tiflisə rəsmi səfəri çərçivəsində əl atdığı təxribata münasibət bildirib. Diplomat Tvitter hesabında Ağrı dağının Türkiyədə ən hündür dağ olduğunu yazıb. Yazqan statusunu gürcü və erməni dillərində də paylaşıb: ”Sadəcə əmin edirəm ki, faktlar karikaturistik diplomatiyada itmir”.

**Ermənistan prezidentinin təxribatçı addımını ”Şərq”ə təhlil edən siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev bildirib ki, Ermənistan prezidentinin bu cür addımları gözləniləndir. Professorun sözlərinə görə, ermənilər daim öz xislətlərinə uyğun hərəkət ediblər:** ”Harada təhsil alması və ya işləməsi ermənilər üçün vacib deyil. Gözlərini açandan onların beyninə yeridilir ki, ”türk sənin düşməníndir”. Bütün erməni uşaqlarının başını ”böyük Ermənistan” xülyası ilə doldururlar və onları türklərə nifrətlə böyüdürlər. Baxmayaraq ki, ermənilər Türkiyəyə XIV əsrdən Mesopotomiyadan (İraq - red) gəlməyə başlayıblar. Amma o qədər həyasızdırlar ki, getdikləri hər yeri ”öz torpaqları” zənn edirlər. Türkiyənin şərq torpaqlarını ələ keçirmək ermənilərin çoxdankı arzusudur. Məqsəd İrəvanın qonşuluğuna gələrək Qarabağa yiyələnməkdir. Ona görə də özlərini ”ən qədim xalq” kimi təqdim etməyə çalışırlar. Hətta ötən gün bir erməni iddia edirdi ki, guya insan yaradılışının kodu ermənilərdir, əgər onlara nəsə olsa, bütün bəşər məhv olacaq. Sarkisyan da bu ağılda olan ermənilərdən biridir. Ermənistan prezidenti elə zənn edir ki, Gürcüstan səfərində Ağrı dağının konturlarını çəkməklə Türkiyənin şərqi onların olacaq. Sarkisyan böyük səhv buraxıb və fikirləşməyib ki, Gürcüstan prezidenti onun qeydlərini sosial şəbəkədə paylaşa bilər. Zurabişvili ağıllı gediş etməklə Sarkisyanı çətin vəziyyətə salıb”.

**C.Nuriyevin qənaətincə, Sarkisyanın məqsədi sadəcə Ağrı dağının onlara məxsus olmasını qabartmaq deyil:** ”Ermənistan prezidenti həm də Gürcüstana mesaj verir ki, sizin Türkiyə ilə yaxınlaşmağınız yanlış seçimdir. Vurğulamaq istəyir ki, həm Ermənistan, həm də Gürcüstan xristian ölkələrdir. Yəni Tiflis öz dindaşı Yerevanla əməkdaşlıq etməlidir, nəinki müsəlman Türkiyə ilə. Zurabişvili belə məqamda düzgün hərəkət edib və Sarkisyanın qeydlərini paylaşmaqla onun mesajlarını heçə endirib. Əslində bu hərəkət diplomatik səhvdir. Amma Zurabişvili diplomatik demarş edib və bununla öz etirazını bildirib. Ermənilərdən çox şey gözləmək olar. Nəzərə alaq ki, Armen Sarkisyan Ermənistanda ən dişsiz siyasətçilərdən biridir. Əgər bunların ən zəif fiquru bu qədər təxribatçıdırsa, görün, digərlərinin ”potensialı” nə qədərdir”.

**İsmayıl Qocayev**

# Ermənistan ordusu qocaların ümidinə qalıb

## Yaşı 63-ə qədər olan vətəndaşlar müqavilə əsasında hərbi xidmət göstərə biləcəklər

44 günlük Vətən müharibəsində Ermənistan ordusunun verdiyi ağır itkinin nəticələri özünü getdikcə daha qabarıq göstərməkdədir. Vətən müharibəsindən sonra ölkəni tərk edənlərin sayının artması, gənclərin nümayişkaranə şəkildə orduya getməkdən imtina etməsi və demoqrafik göstəricilərin daha da pisləşməsi erməni ordusunu şəxsi heyət çatışmazlığı ilə üz-üzə qoyub.



**“Məqsəd insanları daha uzun müddət orduda saxlamaqdır”**

Hətta Ermənistan sərhədlərinin tam şəkildə Rusiya Sərhəd Xidmətinə verilməsi belə bu boşluğu doldurmağa kifayət etmir. Vəziyyətdən çıxmaq üçün Çiçəklənən Ermənistan fraksiyası parlamentə ”Hərbi xidmət və hərbçinin statusu haqqında” qanun layihəsi təqdim edib. Layihə artıq ikinci və sonuncu oxunuşdan da keçib. Qanun layihəsinə əsasən, muzdlu hərbçilərin erməni ordusunda xidmət yaşı 50-dən 63 yaşa, müqavilə əsasında hərbi xidmət üçün nəzərdə tutulan 40 yaş həddi isə 55 yaşa qaldırılıb. Ermənistan Müdafiə Nazirliyi də qanuna düzəlişə müsbət rəy verib.

**Hərbi ekspert Ədalət Verdiyev ”Şərq”ə açıqlamasında bildirib ki, Ermənistanda hərbi xidmət keçən heyətin maksimum xidmət yaş həddinin qaldırılması təbii ki, orada insan resurslarının çatışmazlığı ilə bağlıdır.** Hərbi ekspert qeyd edib ki, Ermənistan hazırda silahlı qüvvələrini şəxsi heyətlə təmin etməkdə ciddi problemlər yaşayır: ”Vətən müharibəsi zamanı kifayət qədər ciddi itki verən Ermənistan hazırda silahlı qüvvələrini şəxsi heyətlə təmin etməkdə ciddi problemlərlə qarşılaşıb. Qeyd edək ki, Ermənistanın İkinci Qarabağ müharibəsində fərari, yaralı və məhv edilənlərlə birlikdə təxminən 25 minə yaxın itkisi olub. İndi Ermənistanda yaş həddi həm zabit heyəti, həm də müqavilələi hərbi xidmət keçən heyət üçün qaldırılıb”.

*Ə.Verdiyev qeyd edib ki, toplamda isə Ermənistanın məqsədi insanları daha uzun müddət orduda ləngitmək və orduda vakant olan vəzifələri yaşlı insanlar hesabına olsa belə komplektləşdirməkdən ibarətdir:* ”Təbii ki, bu da ordunun döyüş imkanlarına və potensialına öz təsirini göstərəcək. Digər tərəfdən isə bu, Ermənistan ordusunda daha gənc yaşında olan insanların orduya cəlb edilməsində yaranan problemləri daha qabarıq şəkildə göstərir”.

**Aynurə Pənahqızı**



# Putin Baydenin təklifini qəbul etdi

**Rusiya Prezidenti Vladimir Putin dünya liderlərinin 22-23 aprel tarixində baş tutacaq iqlim məsələri ilə bağlı sammitində videokonfrans vasitəsi ilə çıxış edəcək. Bu barədə Kremlin mətbuat xidmətindən məlumat verilib.**

Bir qədər bundan əvvəl Ağ Evin mətbuat xidməti ABŞ Prezidenti Co Baydenin 22-23 aprel tarixlərində virtual formatda təşkil olunacaq iqlim sammitinə Putin də daxil olmaqla 40 dünya liderini dəvət etdiyini bildirmişdi.

“Rusiya Prezidenti Vladimir Putin 22 aprel tarixində videokonfrans vasitəsi ilə dünya liderlərinin iqlim sammitində çıxış edəcək. Vladimir Putin qlobal iqlim dəyişikliyinin mənfi nəticələrinin aradan qaldırılmasına yönəlmiş geniş əməkdaşlıq kontekstində Rusiyanın probleme yanaşmasını açıqlayacaq”, - deyə məlumatda qeyd olunur.

# “İsgəndər-M”lə bağlı suallar hələ cavabını tapmayıb




## “Rusiya istənilən halda günahkar olanların adlarını çəkməlidir”

Şuşaya atılan "İsgəndər -M" raketləri ilə bağlı araşdırmalar hələ də davam edir. Məsələyə dair fərqli mülahizələr irəli sürülsə də, baş verənlərin haradan qaynaqlandığı sübut olunmur. Görünən odur ki, real faktlar Rusiyaya sərf etmədiyi üçün üzə çıxarılmır. Aydındır ki, baş verənlərdə Rusiya ittiham olunur.

Azərbaycan Prezidenti İlham Əliyev açıqlamasında Şuşa şəhərinin ”İsgəndər” raketləri ilə atəşə tutulması ilə bağlı izahat gözlədiyini bəyan edib. Lakin rəsmi Moskva hələ ki, susur. Bəzi ekspertlər isə Şuşaya atılan ”İsgəndər -M”in rus hərbçilər tərəfindən işə salındığını iddia edir.

**Hərbi ekspert Ədalət Verdiyev ”Şərq”ə açıqlamasında bildirib ki, ”İsgəndər-M” raketləri ilə bağlı aparılan araşdırmalar hələ də məntiqi sonluğunu tapmayıb:** ”Rusiya tərəfi bunu azərbaycanlı hərbçilərlə müzakirə etdiklərini bildirib. Əslində bu raketlərin Azərbaycanın əlində olması, onların seriya və partiya nömrələrinin Rusiya tərəfinə təqdim edilməsi ilə məsələ çox qısa müddətdə yekunlaşa bilərdi.

”İsgəndər”in seriya və partiya nömrələrinin Rusiya istehsalçısı tərəfindən hansı raket briqadası və ya divizionuna verilməsini aydınlaşdırmaq çox da uzun vaxt tələb etmir”.

*Ə.Verdiyev vurğulayıb ki, Rusiyanın ”İsgəndər” raketini Ermənistana verməsinə dair heç vaxt rəsmi bəyanat səsləndirməməsi və bu barədə BMT-nin Silahlar Registrində hansısa qeydlərin olmaması, onu göstərir ki, Rusiya istənilən halda günahkar olanların adlarını çəkməlidir:* ”Amma bu, hələ də baş verməyib. Ehtimal edirik ki, Azərbaycan tərəfinin narahatlığını aradan qaldırmaq üçün Rusiya ağlabatan və məntiqli açıqlama ilə çıxış edəcək. Əks halda baş verənlər münasibətlərimizə mənfi təsir göstərə bilər”.

**Yeganə Bayramova**

**“Hazırda faktiki olaraq Rusiya və ABŞ arasında İkinci soyuq müharibə müşahidə edilir. İndi klassik soyuq müharibə dövründən sonrakı ən aqressiv informasiya savaşına (kəşfiyyat, təxribat, təbliğat və s.) şahidlik edirik. Qlobal situasiya ilə yanaşı, bir neçə nüans hazırkı informasiya qarşıdurmasını əvvəlkindən fərqləndirir”.**



# Soyuq savaşın dili dəyişib

## Rusiya və ABŞ biri-birini informasiya “bombardmanına tutub”

**Bu fikirləri ”Şərq”ə açıqlamasında politoloq Nurlan Qələndərli deyib.** Onun sözlərinə görə, tərəflər piarın qara deyil, daha çox boz növünə üstünlük verirlər: ”Yeni qarşı tərəflə əlaqədar neqativ imic yaratmaq üçün təkcə dezinformasiyadan deyil, daha çox real məlumatlardan ittiham və tənqid vasitəsi kimi istifadə olunur. Eyni zamanda, həm ABŞ, həm də Rusiya biri-birinin daxili auditoriyasına istiqamətlənmiş xüsusi təbliğat mexanizmi formalaşdırıblar. Burada çap mətbuatı və elektron informasiya resurslarının xidmətlərindən yararlanılır. ABŞ Rusiyada fəaliyyət göstərən bir sıra media orqanlarında anti-Rusiya təbliğatına xidmət edən məlumatlar və analitik materiallar yayımlanmasına çalışır. Eyni addım Rusiya tərəfindən də atılır. Paralel olaraq tərəflər biri-birinin sosial media platformasını informasiya bombardmanı vasitəsilə qlobal ictimai rəydə dəyişikliklər etməyə çalışırlar. Bu prosesdə əsas zərbə gücü kimi videomateriallardan istifadə edilir. Nəhayət, indiki situasiyada təbliğatın vahid dili yoxdur. Qlobal informasiya məkanında populyar olan bütün dillər piar aləti kimi seçilib”.

*“Qlobal informasiya məkanında populyar olan bütün dillər piar aləti kimi istifadə olunur”*

Politoloq əlavə edib ki, nəticədə bəşəriyyət vahid qlobal informasiya məkanında şiddətli toqquşma və mübarizə prosesinə şahidlik edir: ”Proseslərin zaman-zaman artan və azalan dinamika ilə davam edəcəyi şübhəsizdir. Ən əsası, bütün bunlar III Dünya müharibəsi axtarışında olanlar üçün real faktlar və həqiqət anıdır”.

**Aynurə Pənahqızı**



# “1992-ci ildə nə internet var idi, nə də mobil telefon”

## Teoman Korkmaz: “TRT olmasaydı ermənilərin Xocalı faciəsi dünyaya çatdırılmayacaqdı”

**Xüsusilə Qarabağ müharibəsindən sonra türkdilli dövlətlər arasında inteqrasiya, canlanma müşahidə olunur. Azərbaycan və Türkiyə başda olmaqla ayrı-ayrı türkdilli dövlətlər biri-birləri ilə mədəni, iqtisadi, siyasi və hərbi əməkdaşlığı gücləndirirlər. Görünür, həmin dövlət rəhbərlərinin hər biri artıq belə bir addımın vaxtı çatdığını düşünür. Bu, əlbəttə, sevindiricidir.**

Çünki necə deyərlər, el bir olsa, dağ oynadar yerindən. Lakin təkrarlamaq yerinə düşər ki, haqqında danışdığımız inteqrasiya məhz vətən savaşından sonra oldu. Məhz 44 günlük hərbi əməliyyatlarda ayrı-ayrı türkdilli dövlətlər rəsmi Bakıya dəstəklərini ifadə etdilər. Qardaş Türkiyə isə həm diplomatiya, həm də informasiya cəbhəsində, demək olar, bizimlə birgə mübarizə apardı.

**”Şərq” olaraq budəfəki müsahibimiz, türkiyəli jurnalist Teoman Korkmazla da elə iki qardaş dövlətin birliyi və gələcək perspektivlər barədə söhbətləşdik.**

**- Ölkəmizdəki hadisələri haradan izləyirdiniz?**

- Azərbaycanın işğal altındakı torpaqları azad etmək uğrunda başlatdığı hərbi əməliyyatlar barədə yenilikləri Azərbaycan Müdafiə Nazirliyinin yaydığı məlumatlardan, yerli mətbuatdan öyrənirdim. Türk dilində xəbərlər yayan erməni mənşəli bir xəbər agentliyini də izləyirdim. Tez bir zamanda onun ancaq saxta xəbər yaydığını anladım. Həmçinin azərbaycanlı mərhum jurnalist, dostum, qardaşım Rəşad Süleymanov da baş verənlər haqqında məni məlumatlandırırdı. Yeri gəlmişkən, deyim ki, o, həm Azərbaycan, həm də Türkiyə mətbuatına böyük töhfələr verib. Çox böyük xidmətləri var. Rəşad da bu zəfəri gördü, amma koronavirusa yoluxaraq dünyasını dəyişdi. Rəşadla görüntülü danışmaq, baş verənləri müzakirə etmək fikrimiz var idi. Təəssüf ki, həmin gün çatmadan Rəşadın vəfat xəbəri gəldi. Çox kədərləndik. Ciddi itkidir. Ona görə də indi Rəşad qardaşımı xatırlamağı özümə borc bildim.

**- Azərbaycanın həqiqətlərinin, haqq səsinin dünyaya çatdırılmasında türkiyəli jurnalistlər hansı rolu oynadılar?**

- Ermənilərin Xocalıda törətdikləri qətliamı unutmaq mümkün deyil. Elə həmin günlərdə, yəni 1992-ci il fevralın 26-sı ərəfəsində TRT sınaqlar keçirirdi.

Universitetdən məzun olub, hərbi xidmətimi yenicə bitirmişdim. Müxbirlik üçün TRT-yə müraciət etdim. Həmin vaxt rəhmətlik atamın dükanında ona kömək edirdim. Ermənilərin vəhşiliyi məni elə satsıtmışdı ki, dükandakı televizordan xəbərləri izləyirdim. Ardınca TRT-nin elan etdiyi sınaqdan uğurla keçdim və məni müsahibəyə çağırdılar. Məndən Azərbaycanda nələrin olduğunu soruşdular. Hadisələri yaxından izlədiyim üçün təfsilatı ilə danışdım və hətta proqnoz verdim: Türkiyə müdafiə sənayesi inkişaf etdikcə qardaş ölkələrə də silah dəstəyi verəcək. Beləliklə, həmin mərhələdən də keçdim və Ərzuruma göndərildim. Burada atamın dükanında ikən daim onun verdiyi xəbərlərlə Qarabağ hadisələri barədə məlumatlandığım Süleyman Çili ilə tanış oldum. Düz 26 il birlikdə işlədik. 1992-ci ildə nə internet var idi, nə də mobil telefon. TRT olmasaydı ermənilərin Xocalı faciəsi dünyaya çatdırılmayacaqdı. Həmin vaxtlar necə sərasər çalışdığımız hələ də yadımdadır. Uğurla başa çatan haqq savaşınızda Azərbaycanda olan türkiyəli jurnalistlərin xidmətlərini yüksək qiymətləndirirəm. Onlar düşmənin hər cür təxribatına rəğmən, dünyaya doğru informasiya verdilər. Əgər informasiya müharibəsində ancaq Azərbaycan və Ermənistan jurnalistləri mübarizə aparsaydı, bəzi ölkələr hələ də düşmənin yalanlarına, miflərinə inanardı.

> *“Mən jurnalistika fəaliyyətinə Qarabağ məsələsi ilə başladım. Uzun illər ərzində hazırladığım xəbərlər, reportajlarla Xocalı faciəsini dünyaya çatdırmağa çalışdım”*

**- Baş verən hadisələrə Türkiyədə münasibət necə idi?**

- Türkiyədə ağlı başında olan hər kəs bilir ki, son aylaradək Azərbaycanın torpaqları işğal altındaydı. Ermənilər həmin torpaqları tutanda soyqırımla nəticələnən qətliamlar törətmişdilər. Yəni burada hər kəs haqlı tərəfin rəsmi Bakı olduğundan əmindir. Normal işləyən media qurumlarının hər biri həqiqət nədirsə, onu yazdı. Eləcə də biz etibarlı mənbələrdən aldığımız informasiyaları təhrif etmədən, olduğu kimi verdik. Əlbəttə, bunu xüsusilə vurğulamalıyam ki, Azərbaycan Müdafiə Nazirliyinin yaydığı görüntülər həqiqətin üzə çıxmasında müstəsna rol oynadı.

**- İki qardaş ölkənin media sistemlərinin birgə fəaliyyəti barədə nə düşünürsünüz?**

- Türkiyə və Azərbaycanın media qurulşları arasında iş birliyi mütləq olmalıdır. Bu, özünü hətta jurnalistika təhsilində də göstərməlidir. Biz biri-birimizlə təcrübə mübadiləsi aparmalıyıq. Lakin ortaq media qurulușunun yaranması çatdırılacaq xəbərlərin obyektivliyinə şübhə yarada bilər.

**- Belə hadisələr zamanı ”qaynar nöqtələr”dən materiallar hazırlayan həmkarlarımızın fəaliyyəti haqqında nə deyə bilərsiniz?**

- ”Savaş müxbirliyi” ilə ”Müdafiə müxbirliyi” terminlərini biri-birindən fərqləndirmək lazımdır. Onları qarışdırmaq olmaz. Belə ki, savaş müxbirləri müharibənin başlanmasını gözləyən və müharibə başlayanda dünyadakı böyük xəbər agentlikləri üçün külli miqdarda vəsait qarşılığında xəbər hazırlayan jurnalistlərdir. Onlar o qədər çox pul alırlar ki, həyatlarını təhlükəyə atmaqdan çəkinmirlər. Əlbəttə, belə şəraitdə həyatlarını itirən, yaralanan xeyli sayda media işçisi var. ”Müdafiə müxbirləri” isə hər şeydən əvvəl ölkəsinin tarixini, müdafiə sənayesini bilməlidir. Həmçinin ölkəsinin ordusunu tanımalıdır. Vətəninin qonşuları başda olmaqla, digər ölkələrlə əlaqələrindən xəbərdar olmalıdır. Psixoloji həmlələrdən, baryerlərdən baş çıxarmalıdır. Xüsusilə Türkiyə ilə Azərbaycan kimi qardaş ölkələr müharibə əsnasında düşmənin yaydığı dezinformasiyalara qarşı ancaq ”Müdafiə müxbirləri”nin fəaliyyəti ilə müqavimət göstərə bilərlər. Medianın bu istiqamətdəki rolu hər müharibədən sonra növbəti dəfə üzə çıxır. Dediyim kimi, düşmənin yaydığı saxta xəbərlərlə o qədər ustalıqla mübarizə aparıldı ki, hətta ermənilər özləri də həqiqəti dərk etməyə məcbur qaldılar.

**- Azərbaycanın qələbəsi sizdə hansı təəssüratları oyatdı?**

- Mən jurnalistika fəaliyyətinə Qarabağ məsələsi ilə başladım. Uzun illər ərzində hazırladığım xəbərlər, reportajlarla Xocalı faciəsini dünyaya çatdırmağa çalışdım. 2018-ci ildə təqaüdə çıxdım. Bundan iki il sonra Qarabağ erməni işğalından azad olundu. Təqaüdə çıxmağıma baxmayaraq, hələ də fəaliyyət göstərirəm: müharibə vaxtı baş verənləri sosial media hesablarım, həmçinin təsisçisi olduğum ”savunmasanayi.org” saytı vasitəsilə oxucularımıza çatdırdım. 28 ildir bu zəfəri gözləyirdim. Odur ki, Qarabağın, nəhayət, azad olunması mənim üçün xüsusi əhəmiyyət kəsb edir. Çünki Azərbaycan haqlıdır. Və mən ömrüm boyu haqlının tərəfində olmuşam. Azərbaycanla Türkiyə biri-birindən ayrı dövlətlər deyil. Bizim çox sıx əlaqələrimiz var. Xəritəyə baxanda da bu iki dövlətin biri-birindən qəsdli şəkildə ayrıldığını görə bilərik. Güclü olsaq, gücləndirimizi birləşdirsək, bundan sonra hansısa qüvvə Türk dünyasını ayıra bilməz.

**Kənan Novruzov**

## Azərbaycanda Milli Diplom Reyestri yaradılacaq



**Azərbaycanda Milli Diplom Reyestri yaradılacaq.**

Bu ”Ali təhsil haqqında” qanunun ilkin versiyasında əksini tapıb. Layihəyə əsasən, Milli diplom Reyestri ali təhsilin səviyyələri üzrə kvalifikasiya təsdiq edən diplom və diploma əlavələrin vahid mərkəzləşdirilmiş elektron sistemidir.

Milli Diplom Reyestri müvafiq icra hakimiyyəti orqanı tərəfindən yaradılır, icrasına nəzarət edilir və fəaliyyətinin monitorinqi əsasında illik ictimai hesabatlılıqlar təmin edilir. Milli Diplom Reyestri ölkə üzrə akkreditasiyadan keçmiş bütün ali təhsil kvalifikasiyaları haqqında verilmiş diplomlar və diplomlara əlavələr haqqında səhih məlumatı əks etdirməklə diplom və diploma əlavələrin vahid uçotunun aparılmasını təmin edir.

Milli Diplom Reyestrinin doldurulması kvalifikasiyanın verilməsi haqqında qərarı verən ali təhsil müəssisəsi tərəfindən həmin ali təhsil müəssisəsinin müvafiq portalına keçid vasitəsi ilə keçirilir və məlumatın tamlığı və dəqiqliyinə müvafiq ali təhsil müəssisəsi cavabdehlik daşıyır. (apa)

Milli Diplom Reyestrindəki məlumatlar haqqında informasiyaya çıxış və çıxışın müddəti haqqında məlumat şəxsin özü tərəfindən verilir.

## Zəngəzura qovuşacağıq

### “Biz bütün torpaqlarımıza qayıdacağıq”



**Qarabağın böyük bir hissəsini azad etdikdən sonra cəmiyyətdə hazırda işğal altında olan digər torpaqlarımıza, o cümlədən Zəngəzur və İrəvana qayıtmaqla bağlı böyük ümid yaranıb.**

Dövlət başçısının ötən günlərdə bu barədə verdiyi anonsu da nəzərə alsaq, Zəngəzurun azad edilməsinin yaxın gələcəyin əsas prioritetlərindən olduğunu əminliklə deyə bilərik. Ölkə başçısı qeyd edib: ”Biz tarixin bu səhifəsini çevirmək istəyirik, biz etimad tədbirlərinin möhkəmlənməsinə və bu gün həm Azərbaycan-Ermənistan-Rusiya baş nazirlərinin müavinləri səviyyəsində üçtərəfli işçi qrupu çərçivəsində, həm də qonşu ölkələr - Türkiyə və İran ilə bizim məsləhətləşmələrimiz çərçivəsində müzakirə edilən nəqliyyat-logistika layihələrinə istiqamətlənmişik. Beləliklə, Zəngəzur dəhlizi reallığa çevrilir. Biz çoxtərəfli əməkdaşlığa ümid bəsləyirik”.

**Klassik Xalq Cəbhəsi Partiyasının sədri Mirmahmud Mirəlioğlu ”Şərq”ə açıqlamasında bu məsələyə münasibət bildirdi.**

”Əlbəttə, biz bütün torpaqlarımıza qayıdacağıq. Zamanın şərtləri, diktəsi necə tələb edərsə, tarixi torpaqlarımızı elə də azad edəcəyik. Bu, mütləq olacaq. Hətta bütün dünya düşmənlərimizin havadarı olsa da, biz Zəngəzura qovuşacağıq”.

**Kənan**

## “Ali təhsil haqqında” qanun layihəsi hazırlanıb

**Azərbaycanda ”Ali təhsil haqqında” qanun layihəsi hazırlanıb.**

APA-nın məlumatına görə, qanun layihəsi 10 fəsil və 77 maddədən ibarətdir.

Qanun layihəsində təhsil müəssisələrinin ictimai qurumları qismində Rektorlar Şurası və ali təhsil müəssisələri tələbələrinin ictimai birliyinin yaradılması əksini tapıb.

Qanun layihəsində ”Ali təhsilin iqtisadiyyatı” fəslində təhsil kreditlərinə dair ayrıca maddə (65-ci maddə) yer alıb.

# Miqrantlarla bağlı sərt qərar ajiotaj yaradacaq

## Rusiya ərazisində qeyri-qanuni yaşayan azərbaycanlılar 15 iyunu gözləməli deyillər

Rusiya Daxili İşlər Nazirliyi MDB-yə üzv ölkələrdən Rusiyada qanunsuz olaraq yaşayan vətəndaşların 15 iyuna qədər bu ölkədən çıxarılmasını tələb edir. Bunu MDB-nin Parlamentlərarası Assambleyasında çıxışı zamanı Rusiyanın Daxili işlər nazirinin müavini Aleksandr Qorovoy bildirib.



### "Birmənalı şəkildə onlar iyunun 15-dək ölkə ərazisini tərk etməlidirlər ki, sonra daha ciddi məsələlərlə üz-üzə qalmasınlar"

Nazir müavininin slaydda nümayiş etdirdiyi statistikaya görə, bu gün Özbəkistanın 332 min, Tacikistanın 247 min, Ukraynanın 152 min, Azərbaycanın 120 min, Qırğızıstanın 115 min, Ermənistanın 61 min, Moldovanın 56 min, Qazaxıstanın 49 min vətəndaşı qanunsuz olaraq Rusiyada yaşayır. Bununla belə, nazir müavini göstərilən tarixə qədər ölkəni tərk etməyənlərlə bağlı sərt tədbirlərin görüləcəyini deyib: "Əgər prezidentin sərəncamında nəzərdə tutulduğu kimi, iyunun 15-dək bu rəqəmdən qurtulmasaq, onda bu insanlar qovulma və sərhədlərin bağlanması ilə cəzalandırılacaqlar. Mən istəyərdim ki, siz öz ölkənizdə KİV, blogerlər vasitəsilə təbliğat işləri aparasınız".

**Mövzuya münasibət bildirən Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuranın sədri Azər Allahverənov "Şərq"ə açıqlamasında vurğulayıb ki, Rusiya hökuməti birmənalı şəkildə bildirib ki, onun ərazisində yaşayan bir milyondan yuxarı qeyri-qanuni miqrant iyunun 15-dək ölkə ərazisini tərk etməlidir:** "Yəni Rusiyada yaşayan qeyri-qanuni əsaslı miqrantlar könüllü şəkildə özləri bileti alaraq ölkə ərazisindən çıxmalıdırlar. Burada məsələ nədədir? Deməli, iyunun 15-nə qədər Rusiyada sərt karantin rejimi mövcuddur, yeni ölkə ərazisini tərk etməyə icazə yoxdur. Yalnız xüsusi icazəsi olan şəxslər tərk edə bilər. Dekabr ayında ölkə prezidenti tərəfindən belə bir qayda qəbul olunmuşdu və iyun ayının 15-nə qədər bu qanun qüvvədədir. Yəni 15 iyuna qədər ölkə ərazisində yaşayan əcnəbilər xüsusi icazələr və fövqəl səbəblər olmadığı təqdirdə ölkə ərazisini tərk edə bilməzlər. Eyni zamanda 14 martdan etibarən kimin ki, sənədlərinin etibarlılıq müddəti bitibsə, onlara ölkə ərazisini bir qayda olaraq tərk etməyə icazə verilir. Yalnız bir şərtlə. Üçüncü ölkə vasitəsilə bunu həyata keçirmək olmaz. Tutaq ki, Azərbaycan Respublikasının vətəndaşlarının sənədi etibarsızdırsa, o təyyarəyə bilet alıb yalnız Rusiya ərazisindən Azərbaycana qayıda bilər".

*A.Allahverənov Rusiya ərazisində qeyri-qanuni əsaslarla yaşayan azərbaycanlıların sayının çox olmasına da diqqət çəkib:* "Rusiya hökuməti qeyri-qanuni miqrasiya ilə bağlı mübarizəni illərdir ki, bəyan edir. Hətta müəyyən bir vaxtlarda orada qeyri-qanuni əsaslarla yaşayanlar üçün miqrasiya amnistiya məsələsi də nəzərdə tutulurdu. Amma Rusiya hökuməti buna getmədi. Hətta 5-6 il bundan qabaq rəsmi tədbirlərin birində ölkə başçısı demişdi ki, ölkə ərazisində 4 milyondan 10 milyona yaxın qeyri-qanuni əsaslarla yaşayan miqrantlar olduğunu bilirlər. Ötən müddət ərzində Rusiyanın gördüyü tədbirlər nəticəsində qeyri-qanuni əsaslarla yaşayan miqrantların sayı azalıb. Yəni bu gün Rusiyanın ərazisində qeyri-qanuni əsaslarla yaşayan miqrantların sayı təqribən 2 milyon civarındadır ki, onun 1 milyondan çoxunu sərt qərar vasitəsilə bir növ azaltmağa çalışırlar. Ümumiyyətlə, istənilən ölkə onun ərazisində yaşayan qeyri-qanuni miqrantların statuslarının miqrant şəklində olmasında maraqlıdır".

**A.Allahverənov qeyd edib ki, son zamanlar qeyri-qanuni miqrasiya ilə bağlı mübarizədə bəzi hallarda çox sərt qərarların qəbul edilməsini tələb edir:** "Buna görə də bu günləri Rusiya belə sərt qərara gedib. Düşünürəm ki, bu günləri qeyri-qanuni əsaslarla yaşayan vətəndaşlar 15 iyunu gözləməli deyillər. Birmənalı şəkildə onlar iyunun 15-dək ölkə ərazisini tərk etməlidirlər ki, ondan sonra daha ciddi məsələlərlə üz-üzə qalmasınlar. Vurğulayım ki, həmin insanların müəyyən bir qisminin sənədlərinin etibarlılıq müddəti bitib. Mütləqdir ki, onlara yeni sənədlər verilsin. Amma bu sənədlərin ölkə ərazisini tərk edilmədən verilməsi mümkünsə, düşünürəm ki, bunu da biz realizə etməliyik. Bizim Rusiya ərazisində fəaliyyət göstərən diplomatik korpusumuz və diaspor təşkilatlarımız var. Fikrimcə, həmin qurumlar ilk əvvəl orada qeyri-qanuni əsaslarla yaşayan miqrantlara hüquqi yardımlara başlaya bilərlər. Hüquqi yardım mərkəzləri təsis edə bilərlər ki, həmin vətəndaşlarımız da ora müraciət etsinlər. İnsanlar nə səbəbdən qeyri-qanuni əsaslarla yaşadıqlarına aydınlıq gətirsinlər. Əgər onların sənədlərinin düzəldilməsi mümkündürsə, o elə yerindəcə həll olunmalıdır. Həmçinin səyyar qaydada dəstək proqramları da həyata keçirə bilər. Düşünürəm ki, bununla da soydaşlarımızın müəyyən bir qisminin sənədlərinin qaydaya salınmasına biz nail ola bilərik. Bu baxımdan zənnimcə, orada yaşayan qeyri-qanuni əsaslarla yaşayan vətəndaşlara bizim dövlət dəstək göstərməlidir".

**Aynurə Pənahqızı**

## Bu il 395 nəfər daimi yaşamaq üçün Azərbaycana gəlib

**Bu il 395 nəfər daimi yaşamaq üçün Azərbaycana gəlib.**

Trend-in məlumatına görə, bu ilin yanvar-fevral ayları ərzində Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən daimi yaşamaq üçün Azərbaycana 395 nəfər gələn, Azərbaycandan isə 47 nəfər gedən qeydə alınıb.

Nəticədə miqrasiya saldosu ölkə üzrə müsbət 348 nəfər təşkil edib.

## Daha bir müəllim koronavirusdan vəfat etdi



**Bakıda 42 nömrəli məktəbin ibtidai sinif müəllimi Sara Rzayeva koronavirusdan vəfat edib.**

"Qafqazinfo" xəbər verir ki, bu haqda müəllimin yaxınları məlumat veriblər. Onların sözlərinə görə, 65 yaşlı müəllim aprel ayının əvvəllərində koronavirusa yoluxub. Aprelin 17-də müalicə aldığı 1 saylı Kliniki Tibbi Mərkəzdə (Semaşko) dünyasını dəyişib.

*Xatırladaq ki, koronavirus pandemiyası səbəbindən Təhsil Nazirliyinin qərarı ilə aprelin 5-dən etibarən Bakı, Sumqayıt, Gəncə, Şəki şəhərləri və Abşeron rayonunun ümumi təhsil müəssisələrində tədris distant formada təşkil olunur.*

## Yoluxma sayı 1000-dən aşağı düşdü

### Analiz nümunələri müsbət çıxan 29 nəfər vəfat edib

**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 995 yeni yoluxma faktı qeydə alınıb, 1136 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 29 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 301661 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 265539 nəfər müalicə olunaraq sağalıb, 4169 nəfər vəfat edib. 31953 nəfər aktiv xəstə sayını təşkil edib.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 5955, bu günə qədər isə ümumilikdə 3114879 test icra olunub.*

# "Qarabağdakı ermənilər Azərbaycan vətəndaşlığını almaq şansını hələ itirməyib"

## "Danışıqlar davam etməlidir və Zəngəzur-Naxçıvan yolunun statusu da müəyyənləşməlidir"

**"İkinci Qarabağ müharibəsindən sonra Qafqazda yaranan hərbi siyasi vəziyyət 3 qafqaz ölkəsinin real və potensial gücünü ortaya çıxartdı".**

**Bunu "Şərq"ə Vəhdət Partiyasının sədr müavini Vasif Əfəndiyev deyib. Politoloq bildirib ki, sovetlər dağıldıqdan sonra Ermənistana göstərilən ciddi hərbi, iqtisadi və siyasi dəstək Azərbaycan hakimiyyətinin səbirli, ağıllı və mərhələli şəkildə apardığı siyasət nəticəsində darmadağın edildi:** "Ermənistan Azərbaycan tərəfindən çox ciddi hərbi, siyasi və iqtisadi zərbə aldı. Vəziyyəti real olaraq dəyərləndirdikdə Azərbaycanın götürdüyü istiqamətdən yayınmayacağı təqdirdə Ermənistanın revanş götürmək ehtimalı olmadığı görünür. Lakin buna baxmayaraq, Paşinyana müxalif olan qüvvələr Qarabağın öz hüquqi "statusuna" qaytarılması ilə "razılaşmaq" istəmirlər. Əslində onlar real durumu bilsələr də, sırf polulizmlə məşğuldurlar və hakimiyyətə gəlmək üçün Paşinyana siyasi təzyiq edirlər".



*Analitikə görə, iyun ayında Ermənistanda növbədənkənar seçkilərin keçirilməsi ərəfəsində Paşinyanın da revanşist əhval ruhiyyədə çıxışı bu məqsədlə edilir:* "Lakin Paşinyan opponentlərindən fərqli olaraq xeyallarını "sülh" yolu ilə həll edəcəyini vəd edir. Qarabağ ərazisində hazırda məskunlaşan erməni əsilli insanların Azərbaycan vətəndaşlığı almaq şansı hələ də itirilməyib. Bu barədə cənab Prezident ən yüksək səviyyədə bəyanatlar verib və sözünün arxasında duracağını bildirib. Lakin bu məsələlər birtərəfli qaydada olmur. Danışıqlar davam etməlidir və Zəngəzur-Naxçıvan yolunun statusu da müəyyənləşməlidir. Paşinyanın Zəngəzurda ikinci Rusiya hərbi bazasının yaradılması təklifi də müvəqqəti mövqedir. Çünki Ermənistanın gələcək taleyi yalnız Azərbaycan və Türkiyə ilə münasibətlərdən asılıdır. Bu münasibətlər hansı dərəcədə olacaqsa, Ermənistanın inkişafı da o səviyyədə olacaq".

**İsmayıl**






# “Gözüm pəncərələrdə qalır, Maisi axtarıram..."

## Xüsusi təyinatlı şəhidin atası “Şərq”ə danışdı

Qazax rayon Daş Salahlı kəndindən olan şəhidimiz Mais Yaqubovun doğum günüdür. Yaşasaydı 23 yaşı tamam olacaqdı qəhrəmanımızın. Mais Yaqubov İkinci Qarabağ müharibəsində tarix yazan oğullarımızdandır. O oğullar ki, cəbhədə igidlik göstərdilər, qanları, canları bahasına torpağımız uğrunda döyüşüb, ən ali və yüksək məqama - şəhidlik zirvəsinə ucaldılar.

*M.Yaqubov 1998-ci ilin 20 aprelində anadan olub. 2015-ci ildə Şahin Cəbiyev adına Daş Salahlı kənd orta məktəbini bitirib. 2015-2019-cu illərdə isə Heydər Əliyev adına Ali Hərbi Akademiyada təhsil alıb. Qəhrəmanımız Füzuli uğrunda gedən döyüşlərdə böyük şücaət göstərərək şəhadətinə qovuşub. O, Xüsusi Təyinatlı Qoşunların leytenantı idi.*

**”Şərq” olaraq şəhidimizin atası Rəhim Yaqubovla əlaqə saxlayıb, Maisin uşaqlıq dövrləri ilə bağlı xatirələrini öyrəndik.**

**- Maisin anadan olduğu günü necə xatırlayırsız?**

- Mais doğulanda ailəmizdə hər kəsin, əsasən də mənim sevincimin həddi-hüdudu yox idi. Çünki o, dünyaya gələndə çox gözəl idi, sanki parlayırdı. Mais anadan olduqdan sonra hələ 40-ı çıxmamışdı, o zaman anası yuxusunda görüb ki, ağ saçlı və ağ saqqallı nurani bir kişi gəlib Maisin ayağından tutub. Anası qorxub və Maisi həmin kişinin əlindən almaq istəyib. Amma nurani kişi deyib ki, qorxma mən bu uşağa yaxşı bir tale yazmağa gəlmişəm. Bu yuxu hələ də anasının gözünün qabağından getmir. Biz həmişə arxayın idik ki, Maisə heç nə olmayacaq...

**- Uşaqlıqda necə idi?**

- Maisin uşaqlığı çox rəngarəng keçib. Hər zaman başqalarından seçilərdi. Vətənpərvərlik ruhu güclü idi, ağacdan silahlar düzəldərdi. Həmişə döyüş filmlərinə baxıb, orada özünü filmin qəhrəmanı kimi təsəvvür edirdi. Heç vaxt görmədim ki, Mais uşaqlıqda maşın oyuncaqlarla oynasın. O, həmişə silah oyuncaqları ilə oynamağı sevirdi. 6-7-ci sinifdən etibardən ağaca bıçaq atırdı. Deyirdim ki, niyə belə edirsən? Cavab verirdi ki, böyüyəndə ermənilər öldürəcəm, hərbçi, kəşfiyyatçı olacam. Elə hərbçi olmağı da özü seçdi.





**- Dostları ilə əlaqəniz varmı, gəlib-gedirlərmi?**

- Maisin ətrafında onu sevən uşaqlar çox idi. O, istər orta məktəbdə, istərsə də hərbi akademiyada dostları arasında böyük hörmət qazanmışdı. Bu yaxınlarda bir yerdə döyüş yolu keçmiş hərbçi yoldaşı, kapitan Mirtağı Rəhimov gəlmişdi. Kənddəki dostları Maisi o qədər çox istəyirdilər ki, öz aralarında pul toplayıb Şəhidlər Xiyabanına işıq çəkib, oranı işıqlandırdılar, oğlumun adına dayanacaq tikdirdilər. Gecə-gündüz Şəhidlər Xiyabanında işlədilər. Həm pul qoydular, həm də xərc çəkdilər. Həvəslə, can-başla işıq çəkdilər ki, gecələr Maisin yatdığı yer qaranlıq olmasın...

**- Bu sualı verməyə çox çəkinirəm... Maisin yoxluğundan sonra həyatınız necə keçir?**

- Bir az ağırdı danışmaq. Hərdən mənə elə gəlir ki, Mais şəhid olmayıb. Çünki o, 6-7 il idi ki, yanımızda çox olmurdu, ildə 20 gün gəlirdi. 45 günlük məzuniyyəti var idi, onu iki hissəyə bölüb, ildə iki dəfə bizimlə görüşürdü. Əvvəllər də hər gün görmürdük deyə son zamanlar oğlumun şəhid olduğunu belə unuduram. Hələ də gözləyirəm ki, Mais gələcək, gözüm pəncərələrdə qalır, hələ də onu axtarıram...

**- Kənd camaatı dərdinizə şərik çıxırmı?**

- Bəli. Maisin ad gününə bütün Daş Salahlı kəndi hazırlaşır. Xidmət etdiyi hərbi hissə Naxçıvanda yerləşdiyi üçün hərbçi yoldaşları iştirak edə bilmir, ancaq ayrı-ayrı vaxtlarda məzuniyyətə çıxdıqca hamısı gəlib onu ziyarət ediblər və edirlər də. Bu yaxınlarda bir yerdə döyüş yolu keçmiş hərbçi yoldaşı, kapitan Mirtağı Rəhimov gəlmişdi. O, Maisin qrup komandiri olub və döyüşdə ayağından snayperlə vurulub. M.Rəhimov döyüş anını danışanda sanki döyüş filmi izləyirdim. O, Maisin döyüşdəki qəhrəmanlığından danışdıqca ürəyim dağa dönürdü. Düşmən



onları mühasirəyə salmaq istəyirmiş. Amma müharibə bitənə qədər döyüşçülər və ermənilər geri çəkilməyə məcbur olublar. 20 dəqiqədən sonra isə ermənilər bizimkiləri minamyot atəşinə tutublar, orada 5 nəfər şəhid olub. ”Əjdaha” leytenant Mais Yaqubov da həmin qəhrəman şəhidlərdən biri olub. Həmin döyüşdə düşmənin 84 hərbçisi məhv edilib. Xatırladım ki, bu Maisin axırıncı döyüşü olub

**Söhbətləşdi:**
**Yeganə Bayramova**

## Həkim və jurnalistlərə ipoteka krediti verilmir?

### “Bu məsələ peşədən yox, kredit götürən ailənin ümumi gəlirindən asılıdır”



**Müxtəlif peşə sahiblərinə, xüsusilə həkimlərə və jurnalistlərə ipoteka kreditlərinin verilməməsinə dair iddialar var.**

Hərçənd bütün dövrlərdə, elə pandemiya və müharibə vaxtı da ən çox əziyyət çəkənlər məhz həmin peşə sahibləri oldular. **Elə isə?! İqtisadçı-ekspert Qadir İbrahimli səslənən narazılıqlarla bağlı ”Şərq”ə aydınlıq gətirdi:** ”Bu məsələ peşədən yox, kredit götürən ailənin ümumi gəlirindən asılıdır. Belə ki, ipoteka kreditləri verilən zaman ailənin ümumi gəlirindən minimum istehlak xərcləri çıxılır. Sonra yerdə qalan məbləğlə həmin kreditin ödənilib-ödənilə bilməyəcəyi müəyyənləşir. Əlbəttə, məsələyə təsir edən ikinci məqam kreditə götürülən evin xərcidir. Məsələn, ailənin qazancı iki min olarsa, həmin məbləğlə 1700-1800 manatlıq evin kreditə götürülə bilməməsi məlumdur. Bir sözlə, nəzərə alınan yalnız ipoteka kreditlərinin ödənilməsinin nə qədər real olmasıdır”.

**Kənan**

## Terrorçulara qarşı kompromisdən söhbət gedə bilməz

### Rəsmi Bakı öz mövqeyində qəti olmalıdır

“Minsk qrupu özünü təsdiq etmək istəyirsə, o da bizi inandırmalıdır ki, daha hansısa təxribata yol verilməyəcək”

**Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı (AŞ PA) nümayəndə heyətinin rəhbəri Səməd Seyidov AŞ PA-da dünən başlayan yaz sessiyasında telekonfrans vasitəsilə çıxış edib.**

O, erməni hərbi əsirləri ilə bağlı mövzunun AŞ PA-da debat mövzusu olaraq müzakirə edilməsi təklifinə etiraz edib: ”Azərbaycan hər zaman sülh istəyib və artıq bunun üçün əlindən gələnin ən yaxşısını edir. Bu cür debat mövzuları sülh üçün maneələr yaradır. Bu cür mövzuların detallarını bilmədən müzakirəyə çıxarmaq cəhdləri məsələni daha da böyüdür, sülh üçün daha çox manea yaradır”.



Görünür, düşmənin hələ də ”ipəsapa yatmaq” fikri yoxdur...

**Politoloq İlqar Vəlizadə ermənilərin sözügedən səylərini ”Şərq”ə şərh etdi:** ”Təəssüf ki, sözügedən məsələ Minsk qrupunun bəyanatında da öz əksini tapıb. Onlar ”hərbi əsirlərin” beynəlxalq humanitar hüquq çərçivəsində qaytarılmasını tələb edirlər. Və bu, ermənilərə ”qol-qanad verir”. Düşmən özünü haqlı hesab edərək nəyəsə nail ola biləcəyini düşünür. Belə addımlar üçtərəfli sazişin tələblərinin yerinə yetirilməsinə əngəl törətmək və müharibədən əvvəlki vəziyyətə qayıtmaq məqsədi daşıyır”.

**İ.Vəlizadənin fikrincə, rəsmi Bakı öz mövqeyində qəti olmalıdır:** ”Bu məsələdə hansısa kompromisdən söhbət gedə bilməz. Çünki ermənilərin ”hərbi əsir” adlandırdıqları adamlar əslində terrorçudurlar. Bizim onları qaytarmağımız isə özümüzü aldatmağımız olar. Əvvəlcə rəsmi İrəvan belə halların təkrarlanmaması barədə qarant verməlidir. Əks halda biz növbəti diversiya cəhdlərinin olmamasına əmin ola bilmərik. İkinci bir tərəfdən Minsk qrupu özünü təsdiq etmək istəyirsə, o da bizi inandırmalıdır ki, daha hansısa təxribata yol verilməyəcək. Yalnız bundan sonra müəyyən məsələləri çözmək mümkündür”.

**Kənan**

# Qara dəniz qarşıdurma meydanına çevrilib



## Ankara ehtiyatlı davranır, tədbirlərini görür

Yunanıstan Xarici işlər naziri Nikos Dendias Türkiyə ilə bağlı açıqlama verib. Nazir "Kathimerini" qəzetinə müsahibəsində Afinanın Aralıq dənizindəki suverenlik sahəsi və digər mövzularda Ankara ilə fikir ayrılıqlarını görməzlikdən gələ bilməyəcəyini söyləyib.

Onun sözlərinə görə, problemlərə həll tapmaq çətin olsa da, bu, mümkünsüz deyil. Dendias bildirib: "Türkiyə ilə yaşadığımız əsas problem fərqlilikləri həll etməkdə ortaq məxrəcə gələ bilməməyimizdir. Türkiyənin Egey və Şərqi Aralıq dənizi mövzusundakı mövqelərini sərtləşdirdiyini düşünürəm. Ancaq bunun beynəlxalq hüquqa uyğun olaraq sabit dayanma sərgilədiyini görürəm və bunun həll yolunu çətinləşdirəcəyini düşünürəm. Ancaq həll qeyri-mümkün deyil".

Dendias qeyd edib ki, danışıqları davam etdirmək üçün Çavuşoğlunu Afinaya çağırıb və bu görüş Yunanıstan Baş naziri Kyriakos Miçotakis ilə Prezident Rəcəb Tayyib Ərdoğan arasında görüşə yol aça biləcək.

**Türkiyə-Yunanıstan arasındakı gərgin münasibəti "Şərq"ə şərh edən Sosial Tədqiqatlar Mərkəzinin Mətbuat Xidmətinin**

"Yunanıstan və onun arxasındakı güclərin Türkiyə qarşısında qalib gəlmələri mümkün deyil"

**rəhbəri, beynəlxalq məsələlər üzrə mütəxəssis Əziz Əlibəyli bildirib ki, Yunanıstanın xarici siyasətində Türkiyəyə qarşı böyük qıcıq nümayiş etdirilir:** "Bunun əsas səbəbi odur ki, hazırda Yunanıstan xarici siyasətini Avropa Birliyinin (AB) təlimatı əsasında qurur. Bu ölkə xüsusilə Fransanın yönləndirdiyi xarici siyasət xəttini həyata keçirir.

Bu da istər-istəməz Türkiyənin Aralıq dənizindəki mövqelərinə ciddi zərbə vurma ehtimalı yaradır. Fransanın Yunanıstanı silahlandırması, Kritdə ABŞ-ın hərbi bazasının yaradılması, Kiprdə Britaniyaya məxsus bazaların inşa edilməsi kimi hallar baş verib.

Bütün bunlar Yunanıstan ətrafında Avropa və qərbin güclü dövlətlərinin Aralıq dənizindəki hökmranlıqlarını inşa etmək üçün həyata keçirdikləri tədbirlərlə Yunanıstanın qolunu açmaqdır.

Hesab edirəm ki, dəniz sahəsi üzrə pay bölgüsü əsasında ciddi şəkildə qarşıdurma var. Xüsusilə də Şərqi Aralıq dənizi boyunca olan ərəb ölkələri, İsrail, Misir, Kipr və Yunanıstan Türkiyənin əleyhinə birlik formalaşdırırdılar. Türkiyə Liviya ilə məşhur müharibəsi əsasında bu birliyi darmadağın etdi".

*Ə.Əlibəyli vurğulayıb ki, Türkiyə Yunanıstanla məsələləri müzakirə edib, qarşıdurmadan kənar və haqlı olduğu, onun qırmızı xətləri olan ərazilər üzərindəki suverenliyini tam şəkildə ifadə edən mövqe sərgiləyir:* "Yunanıstan da bu mövqe ilə razılaşmır. Türkiyə isə hesab edir ki, hazırda dünyada baş verən proseslərin fonunda Yunanıstanla qarşıdurma yaratmaq strateji maraqlara cavab vermir. Bu baxımdan Yunanıstanla "dil tapmaq" lazımdır. Misirlə Türkiyə bu kontekstdə razılaşdı, artıq İsraillə də xüsusi bir razılaşmalar var. Yunanıstan XİN başçısının bağlı qapılar arxasında bir mövqe, mətbuat önündə isə tamamilə fərqli mövqe nümayiş etdirməsi xüsusi bir qərəzdən xəbər verir. Türkiyə çalışır ki, bu məsələləri ikilikdə həll etsin. Amma məsələ regional xarakter daşıyarsa, iki ölkənin maraqlarından çıxıb tam olaraq kontinental maraqları əhatə edərsə, bu zaman prosesin gedişatı dəyişəcək. Fikrimcə, Yunanıstan və onun arxasındakı güclərin Türkiyə qarşısında qalib gəlmələri mümkün deyil".

**Yeganə Bayramova**

## ABŞ-ın təyyarəsi qəza enişi edib

### Xəsarət alan olmayıb



**ABŞ-da II Dünya müharibəsindən qalma təyyarənin sıradan çıxma səbəbindən okeana təcili enişi baş verib.**

"Şərq" "Ntv.com.tr"yə istinadən xəbər verir ki, Florida çimərliklərində çimən və günəş qəbul edənlər qəfildən çıxan təyyarəni görüb təəccübləniblər.

Məlumata görə, eniş zamanı xəsarət alan olmayıb.

**Yeganə**

## Makron Putinlə görüşmək istəyir



**Fransa Prezidenti Emmanuel Makron yaxın vaxtlarda Rusiya dövlət başçısı Vladimir Putinlə danışıqlar aparmaq niyyətindədir.**

Bu barədə "Şərq" TASS-a istinadən xəbər verir. Bildirilir ki, qərar Makronla ukraynalı həmkarı Vladimir Zelenski arasında keçirilən görüşdən sonra qəbul edilib.

**Kənan**

## Qərbə bel bağlamaq olmaz

### "Ukraynanın yeganə çıxış yolu Türkiyədir"



**"ABŞ-la Rusiya bu mərhələdə razılaşdı. İki amerikan gəmisi boğazlardan geri döndü".**

Bu sözləri AĞ Partiya sədrinin müavini, politoloq Əhəd Məmmədli deyib.

Rəsmi Kiyevin gələcək taleyi barədə "Şərq"ə danışan Ə.Məmmədlinin fikrincə, o, Avropaya bel bağlamamalıdır: "Ukrayna Rusiyanın Avropaya qapısıdır. Görünən tərəf odur ki, ABŞ "qapı" uğrunda Rusiya ilə savaşan deyil. Ukraynanın bu günə düşməsində ən azı Rusiya kimi Qərbin də payı var. Ukraynanın yeganə çıxış yolu, gələcəyi Türkiyədir. Türkiyə məzlumlara, zəiflərə bir ümid yeridir...".

**Kənan**

# Navalnını Nemtsovun taleyi gözləyir

## Rusiyaya sanksiyalar tətbiq etməsi Vaşinqtonun Moskvanı tələyə saldığını göstərir

ABŞ tərəfi hesab edir ki, Rusiya müxalifətinin liderlərindən olan Aleksey Navalnının həbsxanada başına gələcəyi hadisələrə görə məsuliyyəti rəsmi Moskva daşıyır. Bunu ABŞ liderinin milli təhlükəsizlik üzrə köməkçisi Cek Sallivan bəyan edib: "Navalnı təcridxanada öləcəyi təqdirdə Rusiya beynəlxalq ictimaiyyət qarşısında məsuliyyət daşıyacaq.

Görə biləcəyimiz konkret tədbirlər barədə demək istəyirəm ki, müxtəlif yolları nəzərdən keçiririk, hazırkı mərhələdə bunlar barədə açıq danışmayacağam, ancaq Navalnının öləcəyi təqdirdə nəticələrin olacağını bildirdik". Qeyd edək ki, sabah da Avropa Birliyi (AB) ölkələrinin xarici işlər nazirləri Aleksey Navalnı ətrafında vəziyyəti müzakirə edəcəklər.

**Mövzu ilə bağlı siyasi-şərhçi Asif Nərimanlı "Şərq"ə açıqlamasında bildirib ki, bu məsələdə ilk diqqətçəkən məqam Navalnının indi aclıq aksiyasına başlamasıdır. Analitik qeyd edib ki, Baydenin Putinə "qatil" deməsindən sonra qızışan ABŞ-Rusiya qarşıdurması Ukraynada pik həddinə çatıb:** "ABŞ-ın Qara dənizə iki döyüş gəmisini göndərmək açıqlamasından sonra Rusiyanın Xəzər donanmasını Qara dənizə göndərməsi, lakin ABŞ-ın qərarını dəyişdirməsi və ardınca Rusiyaya sanksiyalar tətbiq etməsi Vaşinqtonun Moskvanı tələyə saldığını göstərir. Ukraynada böyük müharibənin olacağı ehtimalı azdır. Lokal toqquşma ola bilər, əsas hədəf bu bölgədə daim gərginliyi saxlamaq, Rusiyanın diqqətini bura cəlb etmək və ona qarşı sanksiyalar tətbiq etməyə zəminlər hazırlamaqdır. Donbass ətrafında gərginliyin artırılması ABŞ üçün ilk zəmin yaratdı. Navalnı ilə bağlı baş verənlər isə növbəti sanksiyalara zəmin yaratmaq məqsədi kimi görünür. Navalnının məhz Vaşinqton-Moskva qarşıdurmasının pik həddində aclıq aksiyasına başlaması da kontekstdə dəyərləndirilməlidir. Burada iki məqam var. Birincisi, Navalnı bu qarşıdurmadan istifadə edərək, diqqəti üzərinə çəkmək və ən azı ev dustaqlığına çıxmağa nail olmaq istəyir. İkincisi, mümkündür ki, ABŞ-dan Navalnıya aclıq aksiyasına başlaması üçün mesaj göndərilib".



**A.Nərimanlı qeyd edib ki, hər iki halda tərəflər biri-birinin əlinə oynayır və hədəf Rusiyaya növbəti sanksiyaların tətbiq edilməsidir:** "Navalnının vəkilinin müvəkkilinin vəziyyətinin kritik olması haqda dedikləri, Sallivanın isə "Navalnı ölərsə, Rusiya beynəlxalq ictimaiyyət önündə məsuliyyət daşıyacaq" xəbərdarlığı, ardınca "müxtəlif addımları nəzərdən keçiririk" mesajı məsələ ətrafında ajiotajın yaradılmasına hesablanıb. Prosesin üç senari üzrə inkişafı gözləniləndir. Birincisi, ABŞ Rusiyanın Navalnını həbsdən buraxmayacağını anlayır və bu, sanksiyaların genişləndirilməsinə asanlıqla imkan yaradır. İkincisi, Navalnı azadlığa buraxılarsa, yenidən hakimiyyətə qarşı təhlükə yaradacaq. Navalnının elektoratı zəif olsa da, Rusiyadakı sosial problemlər aksiyaların genişlənməsinə imkan yaradır. Navalnının azadlığı tələbi ilə keçirilən aksiyalara qatılanların çoxu sosial etirazçılar idi. Üçüncüsü, Navalnı ev dustaqlığına buraxıla bilər, lakin Rusiya hakimiyyəti bununla onun avtoriteti qarşısında geri çəkilmək olacağını anlayır. Rusiyanın sanksiyalarla üzləşsə də, geri çəkilməyəcəyi görünür. Moskva ictimai rəydə "xarici düşmən" obrazını gücləndirmək, həm diqqəti daxili problemlərdən yayındırmaq, həm də hərbi addımlarına haqq qazandırmaq üçün bu qarşıdurmada maraqlıdır. ABŞ-ın Navalnıdan qarşıdakı dövrdə sanksiyaların genişləndirilməsi üçün istifadə etməklə yanaşı, əsas niyyəti Rusiya və Avropa arasında çatları dərinləşdirməkdir. Bilirik ki, Navalnının zamini kimi Almaniya çıxış edir. Bayden hakimiyyətə gələn kimi "Şimal axını - 2" layihəsinə qarşı addımlar atdı, almanlar bu addımlardan narazıdırlar. Lakin Berlinlə Moskva arasında ilk fikir ayrılığı da Navalnının "Noviçok"la zəhərlənməsi, daha sonra Moskvaya qayıdan kimi həbs edilməsi oldu. Vaşinqtonun ana hədəfi də Avropanın Rusiyaya qarşı cəbhədə yer almasını təmin etməkdir. Ukrayna böhranının yenidən dərinləşdirilməsinin səbəblərindən biri də budur. Bütün bunların fonunda ən son senari önə çıxır. Navalnı Nemtsovun taleyini yaşaya bilərmi?! Nemtsovun Kremlin divarlarının dibində qətli ABŞ-ın əlini gücləndirməklə yanaşı, Rusiya daxilindəki qruplaşmaların toqquşmasını da ortaya çıxardı. Navalnı ətrafında baş verənlər də diqqəti bura çəkir. Bu baxımdan, Navalnının Nemtsovun taleyini yaşaması istisna deyil".

**Aynurə Pənahqızı**

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənistanın vəziyyətdən çıxış yolu regional əməkdaşlıqdır

## *Müharibədəki məğlubiyyət ölkənin siyasi-iqtisadi və sosial həyatını alt-üst edib*

Müharibədə ağır məğlubiyyətə uğramış və iqtisadiyyatı çökmüş Ermənistanın yeganə çıxış yolu Azərbaycan və Türkiyə ilə əməkdaşlıqdan keçir. Bu çıxış yolu 30 il ərzində dəfələrlə bəyan olunsa da, 44 günlük müharibədən, yəni Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsindən sonra daha real səslənməkdədir. Hər nə qədər revanşist düşüncələr ön planda olsa da, zaman-zaman Ermənistan tərəfində də mövcud reallıqları dərk edərək bu yöndə açıqlama verən siyasətçilərə, deputatlara rast gəlinir.

Ötən gün regional əməkdaşlıqla bağlı məsələ baş nazir Nikol Paşinyanın dilindən gündəmə gətirilib. Maraqlıdır ki, Paşinyan bu etirafı ölkə daxilindəki çıxışlarında deyil, Rusiyaya səfəri zamanı, Moskvada yaşayan erməni hüquqşünaslarla qapalı görüşdə dilə gətirib. Gizli görüşdən yayılan səs yazısında baş nazirin etirafları yer alıb. Təhlükəsizlik xidməti həmin görüşə qatılanlardan mobil telefonları və smartfonları əvvəlcədən yığıb. Görüşün qapalı olduğu onların nəzərinə çatdırılıb, məlumat sızmasının qarşısını almaq üçün digər tədbirlər görülüb. Buna baxmayaraq, Paşinyanın çıxışının bir hissəsini "Armvoice" telegram-kanalı tərəfindən yayılıb. Məlum olub ki, Ermənistanın baş naziri Qarabağda müharibənin başlamasına görə faktiki olaraq Rusiyanı günahkar sayır: "..Ona görə də birbaşa demək lazımdır ki, bizdə olan status-kvo o həddə qədər qaldı ki, onun mövcudluğu Rusiyanın maraqlarına uyğun gəlirdi. Konyuktura dəyişəndə hər şey dəyişdi və nəyə görəsə haqq ödəmək zamanı gələndə bəlli oldu ki, ya biz bunu edə bilmirik, ya ödəmək istəmirik, ya da ödəməyə heç nəyimiz yoxdur, çünki biz müflisik. Ola bilsin dövlət başçısından belə şeylər eşitmək yersizdir, amma hesab edirəm ki, elə situasiyadır ki, birbirimizə bunu deməyə məcburuq. Mən dərindən əminəm ki, kommunikasiyaların açılması, əlbəttə, əgər biz buna nail ola bilsək, yəni Azərbaycanın Naxçıvana yolunu açmaqla, bu bizim böyük uğurumuzdur. Təsəvvür edin, bizim Rusiya və İranla dəmir yol əlaqələrimiz olacaq. Biz şirkətlərdən investisiya yatırmağı xahiş edirik, amma pomidor yetişdirməklə güclü iqtisadiyyat qurmaq olmaz, sənaye, metallurgiya, İT sahəsi olmalıdır".

Xatırladaq ki, Ermənistan baş naziri ötən həftə parlamentdə çıxışı zamanı regional əməkdaşlığa və 10 noyabr anlaşmasına zidd olan açıqlamalar verməyib. Paşinyan iddia etmişdi ki, Ermənistan "Dağlıq Qarabağ" ərazisinin işğaldan tam azad edilməsi və sərhədlərinin keçmiş "Dağlıq Qarabağ Muxtar Vilayəti" daxilində bərpa olunması məsələsini qaldırmalıdır. Onun sözlərinə görə, söhbət Hadrut rayonu və Şuşanın Xankəndinin (Stepanakert) nəzarəti altına alınmasından gedir. Paşinyanın qənaətincə, bu məsələ hərbi yolla deyil, siyasi yolla həll olunmalıdır. Göründüyü kimi, Paşinyan xəlvətdə əməkdaşlığın faydalarından danışsa da, aşkarda müharibə bəyanatları səsləndirir. Bir sıra ekspertlərin fikrincə, baş nazir əslində yeni reallıqları yaxşı dərk edir və ona görə xarici səfərlərdə bunu səsləndirir. Lakin ölkə daxilində sırf seçici auditoriyasına hesablanmış, ermənilərin "könlünü xoş edən" açıqlamalar verir. Həm də vurğulanır ki, iyunun 20-də növbədənkənar seçkilər var və baş nazirin indiki fəaliyyəti daha çox seçkilərdə qalib olmağa istiqamətlənib. Paşinyan ölkə ictimaiyyətinin bölgədə sülhə və qonşularla əməkdaşlığa hazır olmadığını bildiyi üçün ikili mövqe sərgiləyir. Reallıq isə odur ki, məğlubiyyətini qəbul edən və əvvəlki sələfləri ilə paylaşmaq istəyir. Seçkilərinin nəticəsinin nə olmasından asılı olmayaraq, Ermənistandakı gərginlik özözünə səngiməyəcək. Ölkədaxili qarşıdurmalardan və sosial çöküşdən qurtulmağın çarəsi Azərbaycan və Türkiyə ilə əlaqələri yaxşılaşdırmaq, qonşulara qarşı ərazi iddialarından əl çəkməkdən və üçtərəfli razılaşmanın şərtlərinə qeyd-şərtsiz əməl etməkdir. Əks halda Ermənistan öz dövlət müstəqilliyini də şübhə altına sala bilər. O baxımdan Ermənistan heç bir halda havadarlarının ismarıclarına və qisas çağırışlarına uymamalıdır.

"Azərbaycan blokadanı götürür. Türkiyə də əməkdaşlığa hazır olduğunu açıqlayıb. Amma Ermənistanın üzərinə müəyyən şərtlər, öhdəliklər düşür"

Aprelin 13-də Prezident İlham Əliyev "Cənubi Qafqaza yeni baxış: Münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı beynəlxalq konfransda da Ermənistana və beynəlxalq aktorlara mühüm ismarıclar ünvanladı. Ali Baş Komandan çıxışında hazırda sülhün güclənməsinə mane olan məqamları və region qarşısında dayanan çağırışları beynəlxalq ekspertlərin diqqətinə yönəltdi. Prezident Azərbaycanın sülhə hazır olduğunu, gələcəyə baxmağın zəruriliyini, lakin Ermənistan rəhbərliyinin sülh razılaşmasının mümkünlüyü barədə hələ də bəyanat vermədiyini qeyd etdi: "Biz burada və İrəvanda körpülər qurmaq üçün fəal olmalıyıq. Əlbəttə ki, Ermənistan tərəfi əgər bunu istəyirsə... Biz onların niyyətlərinin nə olduğunu bilmirik, bu işlənib hazırlanmayıb. Mən bir neçə dəfə aydın şəkildə bildirdim: - Biz hesab edirik ki, münaqişə səhifəsi kapitulyasiya aktını imzalayan Ermənistan siyasi gərginlik fonunda günü-gündən daha çətin vəziyyətə düşür. Bütün siyasi qüvvələr arasında yaranmış gərginlik növbədənkənar seçkilər fonunda qarşılıqlı ittihamların səsləndirilməsinə gətirib çıxarıb. Paşinyan özündən əvvəlki Köçəryan-Sarkisyan hakimiyyətini ordunu düzgün təşkil etməməkdə, doğru-dürüst silahlarla təmin etməməkdə ittiham edir, ordunun vəziyyətinin yaxşı olmadığına dair faktlar səsləndirir. Baş nazir məğlubiyyəti özündən artıq geridə qalıb. Ermənistan tərəfi ilə sülh razılaşmasının mümkünlüyü barədə biz qarşı tərəfdən bununla bağlı hər hansı mesaj almamışıq. Ermənistan baş naziri sakitdir, Ermənistan xarici işlər naziri aqressivdir. Hazırda Ermənistan Azərbaycana qarşı aqressiv münasibəti aradan qaldıra biləcək durumda deyil. Onlar müharibədə nələrin baş verdiyini xatırlamalıdırlar". Dövlət başçısının sözlərinə görə, inkişaf üçün Azərbaycan daxilində, eləcə də sərhədlərdən kənarda stabilliyə ehtiyacımız var: "Əsas narahatçılığımızdan biri risklərlə bağlıdır və onları minimallaşdırmaq üçün addımlar atacağıq. Regionda əməkdaşlıq yaratmağımız beynəlxalq uğurumuzdur. Buraya Türkiyə-İran, Gürcüstan-Türkiyə, Rusiya-İran üçtərəfli əməkdaşlığı daxildir. Beləliklə, bu, stabilliyə töhfədir. Əlbəttə ki, Ermənistan tərəfindən revanş cəhdləri riskləri sıfır olmalıdır".

**Qafqaz Beynəlxalq Münasibətlər və Strateji Araşdırmalar Mərkəzinin rəhbəri Araz Aslanlı "Şərq"ə deyib ki, Ermənistan dilemma qarşısındadır. Ekspertin sözlərinə görə, erməni cəmiyyətində gələcəyə doğru konkret baxış yoxdur:** "Ermənilər öz gələcəklərini müəyyən etməkdə çətinlik çəkirlər. Çox absurd iddialarla yaşayır, bütün qonşulara ərazi iddiası sürürlər. Həqiqət odur ki, ermənilərin indiyədək olan bütün sərsəm iddiaları, işğal və təcavüzə hesablanmış siyasətləri, özgə torpaqlar uğrunda mənasız davaları Ermənistanın siyasi-iqtisadi və sosial həyatlarını altüst elədi. Düşmən ölkədə müəyyən siyasi qüvvələr bundan sonrasını bir qədər fərqli görmək istəyirlər. Onlar ermənilərin sosial rifahının nədən ibarət olduğunu anlayır və ara-sıra bunu səsləndirirlər. Təəssüf ki, normal əməkdaşlıq təkliflərini dəstəkləyənlərin sayı Ermənistanda çox azdır. Etiraf edək ki, Paşinyan ölkənin baş naziri kimi Ermənistanı geriyə aparan neqativ məqamlardan xilas etməyi düşünür. Amma müharibədəki məğlubiyyətə və üzləşdiyi tənqidlərə görə çıxılmaz vəziyyətdədir. Baş nazir çalışır ki, Ermənistan regional əməkdaşlığa qoşulsun, nəqliyyat kommunikasiyaların bərpasında iştirak etsin. Eyni zamanda ölkə daxilindəki reputasiyasını qorumaq üçün addımlar atır. Əgər xarici siyasətdə atacağı addımlar Paşinyanı hakimiyyətdən edəcəksə, baş nazir bundan vaz keçmək məcburiyyətində qalacaq. Müharibədən öncə də Paşinyan özünü "sülh göyərçini" kimi təqdim etməklə yanaşı, ən provakativ addımları da atdı. Yəni Paşinyan hakimiyyətə gəldiyi gündən etibarən ikili oynayır. Bu, həm liderlərin psixoloji durumundan xəbər verir, həm də erməni cəmiyyətinin gələcəyə obyektiv yanaşmasının olmadığını göstərir".

**Politoloq Qabil Hüseynli də "Şərq"ə vurğulayıb ki, ağıllı ermənilər gözəl bilirlər ki, regional kommunikasiyaların açılması ilk növbədə Ermənistanın xeyrinədir. Analitikə görə, Yerevan uzun müddət dünyaya car çəkirdi ki, Azərbaycan və Türkiyə erməniləri blokadaya alıb, iqtisadi əməkdaşlığa imkan vermir:** "Azərbaycan blokadanı götürür. Türkiyə də əməkdaşlığa hazır olduğunu açıqlayıb. Amma Ermənistanın üzərinə müəyyən şərtlər, öhdəliklər düşür. Biz müharibə vəziyyətini tam başa çatdırmamışıq. Paşinyanın özü daxil olmaqla "Qarabağ klanı"nın təmsilçiləri, Daşnaksütyun üzvləri revanşist ritorikadan birdəfəlik imtina etmirlər. Halbuki, "status" məsələsi sonsuzadək yığışdırılmalı, ermənilər separatçılıqdan əl çəkməli, iddialarına son verməlidirlər. Bunların hamısından vaz keçmək lazımdır. Paşinyan dolayı yolla dərk edir ki, indiki əsas məsələ regional əməkdaşlıqdır. Elə Ermənistanın da dirçəlməsi buna bağlıdır. Mehri dəhlizi sayəsində Ermənistan Rusiya və İranla iqtisadi əlaqələri inkişaf etdirə bilər. Yerevan özünü ağıllı aparsa, Azərbaycan Ermənistanı Bakı-Tbilisi-Qars dəmiryoluna da qoşa bilər. Məlumdur ki, Gümrüdən Qarsa dəmiryol xətti var. Ermənistan bu sayədə Avropaya və dənizə açılmaq imkanı da əldə edər".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Onlar insanların sağlamlığı üçün çox çalışdılar



*Millət vəkili deyir ki, tibb işçilərinə güzəştli kredit verilməsi üçün şərait yaradılmalıdır*

"Ən azı 3 il səhiyyə müəssisələrində tibb işçisi kimi çalışan şəxslərə güzəştli ipoteka kreditlərinə müraciət hüququ verilsin". Bu təklifi Milli Məclisin deputatı, iqtisadçı-ekspert Vüqar Bayramov feysbuk səhifəsində səsləndirib.

Həkimlərin pandemiya ilə mübarizədə ən çox zəhməti olan vətəndaşlarımızdan olduğunu diqqətə çatdıran ekspert əlavə edib ki, Azərbaycan Prezidentinin göstərişinə əsasən, yeni növ koronavirus infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinə iş vaxtına, saatına mütənasib olaraq əlavələr edilir. Ötən il koronavirus pandemiyası ilə mübarizədə iştirak edənlərə 169.4 milyon manat müddətli əlavə və mükafat ödənildiyini deyən deputat qeyd edib ki, tibb işçilərinə iş vaxtına, saatına mütənasib olaraq 145.8 milyon manat, qeyri-tibb işçilərinə isə 23 milyon manat müddətli əlavə ödənilib. Onun sözlərinə görə, yeni növ koronavirus infeksiyası ilə mübarizə tədbirlərinə cəlb edilən özəl tibb müəssisələrində çalışan tibb işçilərinə isə bü müddətdə 385 min manat məbləğində müddətli əlavə ödənilib: "Könüllülərə isə 138.500 manat məbləğində mükafat ödənilib. Bunlarla yanaşı, pandemiyanın davam etdiyini və bütövlükdə səhiyyə işçilərinin sosial təminatının daha da yaxşılaşdırılması üçün həkim və bütövlükdə tibb işçilərinə güzəştli ipoteka kreditlərinə müraciət hüququnun verilməsi məqsədəuyğun olardı. Belə ki, mövcud qaydalara əsasən, ən azı 3 il dövlət ümumtəhsil müəssisəsində müəllim işləyən şəxslər belə hüquqdan faydalana bilsələr də həkimlər üçün bu imkan nəzərdə tutulmayıb". **Ekspert düşünür ki, əksər post-sovet ölkələrində də həkimlərin sosial proqramlarda iştirak hüququnun yaradıldığını nəzərə alsaq, Azərbaycanda da oxşar imkanın təklif olması məqsədəuyğundur:** "Digər tərəfdən, bu ildən Azərbaycanda icbari tibbi sığortanın tətbiqini də nəzərə alsaq, həkimlərin və bütövlükdə tibb işçilərinin əmək haqqlarında artımların olacağı gözlənilir. Bu isə onlara güzəştli ipoteka kreditlərinə müraciət hüququ verilərsə aşağı faizli və uzun müddətli kredit ilə mənzil problemlərini həll etmək imkanı yaradacaq".

**Aynurə Pənahqızı**

## Şəhidin anasına yazdığı məktub yayıldı

"Qardaşımın oğluna mənim adımı qoyarsınız"



**Sosial şəbəkələrdə Tovuz döyüşləri zamanı qəhrəmancasına şəhadətə ucalan 18 yaşlı şəhidimiz Xəyyam Daşdəmirovun anasına yazdığı məktub paylaşılıb.**

**"Şərq" igidimizin son sözlərini təqdim edir:** "Ana, yıxılma ha! Dik dayan! Nəfəsim bir azdan dayanacaq. Bölük yoldaşlarım məni evə gətirəcəklər. Elə ki, evə çatdım məni bərk qucaqla. Bu son görüşümüzdür, ana. Elə bərk qucaqla ki, dadı qalsın. Qoxumu burnuna çək, ana. Sən şəhid anasısan, dik dayan, qəddini əymə. Atama da salam de, şəhid salamı! O başa düşər. Qardaşımın oğluna mənim adımı qoyarsınız. Mənim günəşim söndü, ana. Biri-birinizi qoruyun. Məni bağışla, daha gücüm qalmadı. Mən şəhid oldum".

**Samirə**



# Kollektiv idarəetmə bol məhsul vəd edir

*Belarus aqrar sahədəki təcrübəsini Azərbaycanla bölüşəcək*

Belarus Azərbaycanla aqrar sahədə təcrübə və biliklərini paylaşmağa hazırdır. Bunu Belarusun memarlıq və tikinti naziri Ruslan Parxamoviç deyib. O bildirib ki, söhbət Qarabağda bütün infrastrukturun bərpasından gedir:

"Belarusda mövcud olan aqroşəhərciklərin Qarabağda tikintisi nəzərdə tutulur. Bundan başqa, su elektrik stansiyalarının, elektrik şəbəkələrinin, su təchizatı şəbəkələrinin bərpasından söhbət gedir. Bir sözlə, həmin ərazilərdə kompleks tikintinin həyata keçirilməsi planlaşdırılır".

**İqtisadçı-ekspert Natiq Cəfərli "Şərq"ə açıqlamasında bildirib ki, Belarusun aqrar sahədəki təcrübə və biliklərinin öyrənilməsində fayda var.** Ekspert qeyd edib ki, bu təcrübə bir neçə ildən sonra Azərbaycanda məhsulun, istehsalın, habelə ixracatın artımına səbəb ola bilər: "Belarus təcrübəsində əsas məsələ ondan ibarətdir ki, böyük torpaq sahələrinə kollektiv idarəetmə təklif olunur. Bu təbii ki, sovetlərin zamanında qalmış kolxoz prinsipi deyil. Burda özəl mülkiyyətçilərin özləri də var. Yəni bunlar şirkətlərdi və ya fərdi sahibkarlardır. Onlar torpaq sahələrini birləşdirərək birgə fəaliyyət göstərirlər. Bu aqrar şəhərciklərdə ilkin məhsulun istehsalından və emalından tutmuş son məhsuluna qədər bir zəncir yaradılıb. Bu gün Bakıda bir neçə Belarus məhsulları mağazaları fəaliyyət göstərir. Və bu fəaliyyət göstərən mağazalarda satılan məhsulların böyük əksəriyyəti məhz elə aqrar şəhərciklərin, ümumiyyətlə, aqrar sahədə fəaliyyət göstərən böyük kollektivlərin əməyinin məhsuludur. Bu süd məhsulları, ət məhsulları və s. bir çox məsələlərə qədər öz həllini tapıb". **N.Cəfərli əlavə edib ki, əgər eyni qayda, eyni məntiq Azərbaycanda da təsdiq olunacaqsa, bu təcrübədən istifadə etməkdə xeyir var:** "İsraildə də buna bənzər kommunallar fəaliyyət göstərir. Orda da torpaq sahələri birləşdirilərək böyük təsərrüfatlar yaradılır. Nəticədə kollektiv idarəetmə yanaşması ilə məhsul bolluğunun yaradılmasına nail olunub. Çünki yeni texnologiyalar- suvarma sistemləri, yeni seleksiya üsulları bütün bunlar burada təsdiq olunub. Yəni bu şəhərciklər həm İsrail, həm Belarus, həm də digər ölkələrdə, əsasən də Şimali Avropa ölkələrində geniş yayılıb. Təbii ki, bu ölkələrin də təcrübələrindən istifadə etmək vacibdir. Əsas məsələ bu layihənin həyata keçirilməsində elmi əsasların hazırlanmasıdır. Orda istehsal olunan məhsulun son məhsula çevrilməsi ilə bağlı zəncirlərin qurulması, yeni investorların cəlb olunması və bu investorlara qanunvericilik şəkildə təminatların verilməsi kimi məsələlər paralel olaraq öz həllini tapmalıdır. Düşünürəm ki, bu təcrübə bir neçə ildən sonra Azərbaycanda məhsulun istehsalına, ixracatın artımına səbəb olacaq. Həmçinin ərzaq məhsullarının özümüzün təminatımızda da yaxşılaşmasına səbəb olacaq bir addıma çevrilə bilər".

**Aynurə Pənahqızı**

# İmtahan Mərkəzi ilə Təhsil Nazirliyi ortaq məxrəcə gələ bilmir

*Ona görə də "İnformatika müəllimliyi"nə kimyadan imtahan verirlər*



"Azərbaycanın rəqəmsal dünyasının ən absurd qərarlarından biri: "İnformatika müəllimliyi" ixtisasını seçənlərin informatikadan deyil, kimyadan qəbul imtahanı verməməleridir". Bu sözləri Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz deyib. Ekspert məsələ barədə daha ətraflı "Şərq"ə danışdı:

"Son zamanlar rəqəmsal sektorda uzun illər həllini gözləyən problemləri bir daha xatırladıram. Baxıram ki, bizim rəqəmsal problemlərimiz də xeyli "qocalıb". Uzun illərdir ali məktəblərə qəbulda "informatika, yoxsa kimya" problemi də öz həllini tapa bilmir. Dəfələrlə bu məsələ DİM və Təhsil Nazirliyi qarşısında qaldırılıb. Uzun-uzadı müzakirələr aparılıb. Belə görünür ki, bu il də İKT yönümlü ixtisası, o cümlədən informatika müəllimliyini, proqramlaşdırma ixtisaslarını seçənlər informatika əvəzinə, kimyadan qəbul imtahanı verəcəklər. Deməli, hələ də DİM və TN bununla bağlı daxili problemlərini həll edə bilməyiblər".

Onun fikrincə, iki qurum arasında fikir ayrılığı var: "DİM deyir ki, texnoloji ixtisaslara informatikadan imtahan götürülərsə, əksəriyyət kəsiləcək. DİM düşünür ki, bu, nazirliyin problemidir, məktəblərdə informatikanın tədrisi yetərli olmadığına görə şagirdlərin bilik və bacarıqları da qənaətbəxş deyil.

Nazirliyin kontur-arqumenti isə belədir: bu, DİM-in problemidir, gərək DİM informatikanı imtahan olaraq daxil etsin ki, məktəblərdə, valideynlərdə və şagirdlərdə bu fənnə diqqət artırılsın. Əlbəttə, DİM-in elmi-statistik təhlillərindən görünür ki, məktəblərdə nəinki informatikanın, elə riyaziyyatın da tədrisində ciddi problemlər var.

Amma MİQ müsabiqələrindən sonra informatikanın tədrisinin məktəblərdə xeyli yaxşılaşdığını nəzərə almalıyıq.

Beləliklə, iki dövlət qurumunun ortaq məxrəcə gələ bilməməsi səbəbindən uzun illərdir problem həll olunmadan qalır. Bir müddət öncə, DİM riyaziyyatdan bəzi imtahan tapşırıqlarının informatika fənni üzrə ola biləcəyini açıqlamasına rəğmən, sonradan bunlar da unuduldu".

**O. Gündüzün sözlərinə görə, qərarlar tələblərə uyğun verilməlidir:** "Ötən illərdə hökumət İKT yönümlü ixtisasların təsnifatını xeyli təkmilləşdirib. Yeni İT ixtisaslar, mexatronika və robototexnika, radiotexnika, aerokosmik, elektronika və telekommunikasiya mühəndisliyi və s. bu kimi ixtisaslar var. Məncə, hökumət DİM və Təhsil Nazirliyini, rəqəmsal inkişafa cavabdeh olan dövlət qurumlarını bir araya gətirərək, normal müzakirələr təşkil etməli və 4-cü sənaye inqilabının çağırışlarını, rəqəmsal transformasiyanın tələblərini nəzərə alaraq İT yönümlü ixtisasların olduğu 1-ci qrupun imtahanlarında kimya fənnini informatika ilə əvəzləməlidir".

**Kənan Novruzov**

# Laqeydlik zənciri qırılmır

İstedadlı rejissor, mərhum Rasim Ocaqov 1981-ci ildə "Bağlı qapı arxasında" filmini çəkdi. Filmin məzmunu insanlar arasındakı laqeydlik idi. Lakin bir nəfər - Murad laqeydlik zəncirini qırır və qonşuların artıq eşitməyə adət etdikləri, arxasından fəryad səslərinin eşidildiyi qapını açmağa qərar verir. Doğrudur, buna görə milisə (polisə) düşür, amma bu dəfə qonşular ondan artıq dərs almış vəziyyətdədilər və Muradı müdafiə edirlər.



Bir zənglə hansısa bədbəxt hadisənin önünü ala bilərik

*Bağlı qapılar arxasında faciələr yaşanır*

Günümüzdə də bağlı qapılarla bağlı tez-tez xəbərlər verilir: FHN-nin xüsusi xilasetmə qrupu bağlı qapı arxasında qalmış azyaşlını xilas etdi... Köməksiz vəziyyətdə qalmış bir nəfərə yardım göstərildi... Vətəndaş huşsuz vəziyyətdə aşkar edilib və aidiyyəti üzrə təhvil verilib... Xatırlayırsınızsa, Xaçmaz şəhərində 44 yaşlı müəllimə hamam otağında ölü vəziyyətdə tapılmışdı. Tək yaşayırmış. Bir neçə həmkarı işə gedərkən yolüstü müəllimənin evinə gəlib, qapını döyüblər, səs çıxmayıb, narahat olub polisə zəng ediblər. Məlum olub ki, müəllimə hamam otağında qaz sızmasından keçinib. Belə bədbəxt hadisələr çox olur. Bəzən azyaşlı evdə tək qalır, təhlükəli oyunlara əl atır, bəzən valideyn uşağı evdə qoyub gedir, açarları da evdə unudur. Bəzən günlərlə görmədiyimiz qonşumuzun harada olması bizi maraqlandırmır. Onun başına hansısa bədbəxt hadisənin gələ biləcəyini təxmin etmirik. Hətta günlərlə çığır-bağır sədaları gələn qonşu evdə də nə baş verdiyini öyrənmək istəmirik. "Nə işimə!" deyib keçib gedirik. Halbuki, bizim ayıq-sayıqlığımız bədbəxt hadisələrin, faciələrin önünü ala bilər. Nədir bizi səhlənkar edən? Məsuliyyəti anlamamaq, başqasının şəxsi işinə müdaxilə etməmək qərarı, bəlkə polisə müraciətdən çəkinmək - "polisə müraciət "xəbərçilik"dir, yanaşması?

**Təhlükəsizlik məsələləri üzrə ekspert Elmar Nurəliyev "Şərq"ə açıqlamasında burada həm valideyn məsuliyyətsizliyi, həm vətəndaş səhlənkarlığının olmasını önə çəkdi:**

- Azyaşlıların evdə tənha qalması, birbaşa valideyn məsuliyyətsizliyinin göstəricisidir. Necə ola bilər ki, yetkinlik yaşına çatmamış, müstəqil və doğru qərar vermək iqtidarında olmayan uşağı, azyaşlını evdə qoyub gedəsən?!. Valideynlər buna hər cür izah verməyə səy edir. Guya övladlarını "yaxşı" tərbiyə ediblər, onlardan icazəsiz heç nəyə əl vurmur, qapını açma, tapşırıblarsa, açası deyil, qaz plitəsini yandırası deyil və sair. Lakin gündəlik həyatda rastlaşdığımız və təəssüf ki, bir çox hallarda faciələrlə nəticələnən hallar məhz valideyn məsuliyyətsizliyindən baş verir. Uşaqdır, yemək istəyir, düşünür ki, anası xörək hazırlayanda qaz plitəsini yandırır, xörəyi isidir, o da həmin hərəkəti təkrar etməlidir və qaz plitəsini yandırmaq istəyir. Kibrit, od, atəş ən təhlükəli vasitələrdir. Bəzən mənzildə yanğın baş verir, yaxud qaz sızması əmələ gəlir, uşaq çaydanı, qazanı üzərinə aşırır. Mənzildə uşağa real təhlükə yaradacaq saysız-hesabsız əşyalar və hallar var. Bəlkə uşaq qapını açıb həyətə düşmək istəyir, sonra da qapını bağlaya bilmir, qapı örtülür və uşaq da saatlarla küçədə, həyətdə qalır. Evin içində də yalnız vəziyyətdə qalmış uşaq üçün real təhlükələr yetərincədir. Divandan hoppandığı üçün qolu, ayağı sınan uşaqlar olur. Təsəvvür edirsinizmi, bu uşağın anaatası gələnədək o vəziyyətdə qalması nə deməkdir? Bu, uşağın gərgin psixoloji travma keçirməsi deməkdir. Uşaq şokdan həyatını itirə də bilər. Ona görə də valideyn hər bir təhlükəni nəzərə almalı və heç vaxt azyaşlını, yetkinlik yaşına çatmamış uşağı evdə tək qoyub harasa getməməlidir. Ümumiyyətlə, evdə tək qalmaq uşaqların psixikasına mənfi təsir göstərir. Hazırda valideynlər "çıxış yolu"nu uşağın əlinə smartfon verməkdə görür, lakin nəzərə alsınlar ki, mobil telefonlardakı oyunlar, məlumatlar hazırda ən böyük təhlükədir.

**E.Nurəliyev ahıl, xəstə insanların bəzən evdə tənha qalması, ölümlərindən qonşuların xəbər tutmasını vətəndaş məsuliyyətinin az olması ilə izah etdi:**

- Bu, artıq hər birimizi düşündürməli olan mövzudur. Həyət evlərində belə hallar adətən yaşanmır. İstər-istəməz qonşular biri-birindən xəbərdar olur, hal-əhval tuturlar. Amma yaşayış komplekslərində, binalardakı qonşuların hətta eyni blokda kimin yaşamasından da xəbəri olmur. Bu, günümüzün reallığıdır. Və əlbəttə ki, acı reallıqdır. Ona görə də bəzən belə xəbərlər eşidirik ki, kimsə evində ölmüş vəziyyətdə tapılıb. Həm də 2-3 gün sonra. İnsanlar nə qədər laqeydləşiblər ki, qonşuluqda yaşayan insanı 1 gün, 2 gün görmürlər, maraqlanmırlar ki, bu adam hardadır, niyə görünmür?! İnsanlarda biri-birinə qarşı mərhəmət hissi olmalıdır. Mərhəmət hissindən çıxış edərək də biri-birinin əhvalını soruşmalı, problemi ilə maraqlanmalıdırlar. Qaldı ki, polisə müraciət məsələsinə, bəli, təəssüf ki, belə "ənənə" var - polisə xəbər verərəm, deyərlər, sənin nə işinə qalıb?!. Yazılmamış mental dəyərlər təhlükəni önləməyə mane olur. Halbuki, hüquq-mühafizə orqanlarına zamanında edilmiş müraciət, bir zəng hansısa faciənin önünü ala bilər. Biz məsuliyyətdən yayınmaqla kimisə cinayətə, bəd əmələ, hətta ölümə tərk etmiş oluruq. Məsələn, küçəylə hərəkət edirik, şübhəli bir əşya gözümüzə sataşdı, yaxud kiminsə hərəkəti şübhəli göründü, "mən keçib gedəcəm, amma digərləri üçün təhlükə ola bilər" düşüncəsiylə hüquq-mühafizə orqanlarına müraciət etməliyik. "112" Qaynar xəttinin mövcudluğunu vətəndaşlarımızın əksəriyyəti bilir. Zəng vurmağa tənbəllik etməsinlər.

**Məlahət Rzayeva**

## Evdən 110 min manatlıq oğurluq edən şəxslər tutulub

Hər iki şəxs ifadələrində törətdikləri hadisəni etiraf ediblər





**Yasamal rayonuda evdən 70 min manat nağd pul və 40 min manat qızıl oğurlayan şəxslər saxlanılıblar. Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən "Şərq"ə verilən xəbərə görə, Yasamal rayonunda evlərdən birindən oğurluq edilib.**

Naməlum şəxs mənzildə olan seyfi yararaq içərisində olan 70 min manat, 40 min manat məbləğində qızıl-zinət əşyalarını, habelə noutbuk və fotoaparatı oğurlayıb. Yasamal Rayon Polis İdarəsi və 29-cu Polis Şöbəsinin əməkdaşları tərəfindən həyata keçirilən əməliyyat nəticəsində həmin hadisəni törətməkdə şübhəli bilinən zərərçəkənin yaxın qohumu Toğrul Axundzadə və İdris Salahov saxlanılıblar. Hər iki şəxs ifadələrində etdikləri hadisəni etiraf ediblər.

Araşdırma zamanı müəyyən edilib ki, qohumunun mənzilindən oğurluq etmək üçün evin və seyfin açarlarını İdris Salahova Toğrul Axudzadə verib. O, evdə heç kimin olmadığı barədə İ.Salahova məlumat verdikdən sonra sonuncu evə daxil olaraq həmin hadisəni törədib. İş üzrə keçirilən istintaq-əməliyyat tədbirləri nəticəsində T.Axundzadə və İ.Salahovdan oğurladıqları pul və qızıl-zinət əşyalarının bir hissəsi aşkar olunaraq maddi sübut kimi götürülüb.

*Qeyd edək ki, İ.Salahov evə iki dəfə daxil olub. Birinci dəfə o, seyfdə olan pulları oğurlayıb. Daha sonra T.Axundzadənin təkidi ilə ikinci dəfə evə daxil olan İ.Salahov bu dəfə qızılları oğurlamaqla yanaşı fotoaparat və noutbuku da ələ keçirib.*

*Saxlanılan şəxslər barəsində Yasamal Rayon Polis İdarəsinin İstintaq Şöbəsinə Cinayət Məcəlləsinin 177.3.2-ci (Oğurluq, külli miqdarda ziyan vurmaqla törədildikdə) maddəsi ilə cinayət işi başlanılıb, istintaq və əməliyyat tədbirləri davam etdirilir.*

# Gömrük Komitəsi süni qiymət artımı yaradır

*"Bu qurum ləğv edilməli və nəzdində gömrük xidməti yaradılmalıdır"*




Dövlət Gömrük Komitəsi ilə bağlı narazılıqlar bitib-tükənmir. Ən çox narahat edən məqam isə, heç şübhəsiz, gömrük qiymətinin baha olmasıdır.

Baha deyəndə ki, "əl yandıran" dərəcədə. Bunu sahibkarlar - ölkəyə məhsul gətirənlərin özləri deyirlər. Və əlavə edirlər ki, keyfiyyəti daha aşağı olan məhsul, həmçinin avtomobil gətirməkdən başqa çarələri yoxdur. Əks halda, necə deyərlər, üzü astarından baha çıxacaq... Olan da kasıb vətəndaşa olur.

**İqtisadçı-ekspert Nazim Bəydəmirli "Şərq"ə açıqlamasında narazılıqların haqlı olduğunu söylədi: "Əlbəttə, mövcud vəziyyət məntiqsizdir.** Çünki gömrük rüsumları daxili istehsalı qorumaqdan ötrüdür. Ölkəyə idxalın qarşısını almaq istəyən dövlətlər gömrük rüsumunu baha edirlər ki, daxili istehsal stimullaşsın. Bizdə isə avtomobil istehsal olunmur. Nəticədə Gürcüstanda 3 minə satılan maşın bizdə üç dəfə baha qiymətə təklif edilir. Bu, gömrük orqanlarının əsassız qiymət artımını şərtləndirməsi təşəbbüsüdür. Təəssüf ki, biz Gürcüstan yox, İran iqtisadi modelindən istifadə edirik. Halbuki, geridə qalmış cənub qonşumuzda gömrük rüsumunun baha olması məntiqlidir. Çünki daxili istehsal var".

**N.Bəydəmirli, həmçinin çıxış yolunu da göstərdi:** "Gömrük rüsumu baha olduğu üçün daha ucuz, geridə qalmış rus avtomobillərinin ölkəyə idxalına şərait yaranır. Beləliklə, qəza ehtimalları artır, ekologiyaya ziyan dəyir. Fikrimcə, müasir avtomobillərin, yəni elektromobillərin idxalı stimullaşdırılmalıdır. Bir çox ölkələrdə sürücülərdən köhnə avtomobillər yığılır və yenisini almaq istəyənlərə subsidiya ödənilir. Bəzi ölkələrdə parklanma, elektromobillərin şarjı ödənişsizdir. Qardaş Türkiyə isə maşınlarını dəyişmək istəyənlərə uzunmüddətli kreditlər verir. Ümumiyyətlə, Dövlət Gömrük Komitəsi süni qiymət artımı yaradır. Düşünürəm ki, bu qurum ləğv edilməli və nəzdində gömrük xidməti yaradılmalıdır".

**Kənan Novruzov**

# “Sən”lərin duaları olmasa da olar”

*Flora Kərimova: Bağımda İt ovçularından gizlədib bəslədiyim küçə itlərinin savabı mənim bəsimdir!*



Bir müddətdir ki, Xalq artisti Flora Kərimovanın illər əvvəlki müsahibəsində Allahla bağlı söylədiyi sözlər müzakirə olunur. Onu fikirlərinə görə qınayanların sayı hesabı yoxdur.

**”Şərq” məlumat verir ki, korifey sənətkar ona irad bildirənlərə cavab verib. O bu barədə feysbuk səhifəsində yazıb:** ”Kütlə”, o qədər cahilsiniz ki, dilimizi rəzilliyə apardığınız kimi, mənasını da başa düşməkdə çətinlik çəkirsiniz! Birinci, ya da onuncu deyil, heç yüzüncü də deyil ki, bu kimi çirkab kampaniyalardan alnım açıq çıxmışam. Bir şey tapmadız yazmağa? İndi də Allahın qibləsini tanımayan məni 80 yaşımda ”Allahsızlıqda” günahlandırır! Yaradanla Allahlar (Şiva, Zevs, Ra, Məzda... ) arasındakı fərqi görmürsünüzsə, bu sizin savadsızlığınızdır. Bir tikə çörək üçün kişiliyinizi, vicdanınızı, ləyaqətinizi ,qeyrətinizi tapdalamaq yarışına girmisiz! Sözümü dəyişib məni savadsız kütlənin qarğışına, söyüşünə tuş etdiniz! Sonra bundan pul qazanıb aparıb evdəki övladlarınıza yedirdiniz.

Bəs, sonra? Nuş oldu? Bəs sən, Allah dediyin varlıqdan qorxmadın? Məni başa düşmək üçün sizin nə yaşınız, nə dünyagörüşünüz, nə intellektiniz, nə də savadınız çatmadı. Heç olmasa, Flora deyəni elə təhrif edərdiniz ki, min nəfər inansın! Yaradan ”sən”-ləri o qədər cılız yaradıb ki, ac qalmamaq üçün mənim təhrif edilmiş cümlələrimə möhtacdırlar! Dünən biri ölür, tanımadan, bilmədən bu gün nələr yazırsız şərhlərə... Artıq o həddə çatmısız ki, Allahın qədərinə, yazdığı taleyə, ölümlə lağ-lağa edirsiniz, ”şərh” yarışına çıxırsınız.

Görək kim daha yaxşı təhqir yazıb ”komment” tutuzduracaq. Sizin nədən sığortanız var axı bu həyatda? Özündən əminsən, bəs övladlarındandamı qorxmadın ki, bu qınağa görə Allah başına daş salar?! Virtual qeybətin aludəçiləri, rəzalət içindəsiniz! Yaradan bağışlayacaq sizi? Bəli, demişəm ki, Yaradan hər kəsi bağışlasaydı, cəhənnəmi yaratmazdı. Yaradan mənə haqq veribsə, haqqımı çeynəyənləyə halal etmirəm. Təəssüf ki, bu günahlarınızı başa düşəcək biçimdə yaradılmadınız.

Təkəbbür, kibir, riyakarlıq içindəsiz! İndi bu müqəddəs ayda ha tövbə edin, ha namaz qılın! Mən ömrümü boşuna yaşamadım. Millətimin, xalqımın, insanların və ən əsası Yaradanımın yanında sədaqətimi, kimliyimi xırdalamadım.

Bu Ramazan ayında bağımda ”it ovçularından gizlədib bəslədiyim küçə itlərinin savabı mənim bəsimdir! ”Sən”lərin duaları olmasa da olar!”

**Samirə Ərəblinski**



## "Dünənə qədər verməliydi"

Elza Roza Zərgərlinin borcunu qaytarmayıb

**”Mənə pul borcludur. Amma burada zahiri görünüşümü müzakirə edir. Halbuki, bir gün əvvəl birgə yeyib-içirdik”.**

”Şərq ” xəbər verir ki, bu sözləri müğənni Roza Zərgərli ”ATV maqazin onlarla” verilişində həmkarı Elza Seyidcahan haqqında söyləyib. O, bəstəkarın 7 il öncə xarici dövlətlərin birində çıxılmaz vəziyyətdə qaldığını deyib: ”Onda dost da deyildik. Mənə zəng etdi, borc istədi. Mən də darda qoymadım göndərdim. Dünənə qədər verməliydi. Lakin istəmədim. Özü söylədi ki, bir dəfə mahnı yazıb qaytararam. Son dəfə Tərtərdə yedik-içdik. 3 gün sonra açıqlama verdi ki, Roza ”fiqurası” ilə məşğul olsun”.

## Xuraman Şuşalı da uşaq pulu istəyir



**Aparıcı Mətanət Əliverdiyevanın ”6/8” verilişinin növbəti qonağı müğənni Xuraman Şuşalı olub. Aparıcı 4 uşaq anası olan sənətçiyə maraqlı sual ünvanlayıb.**

”Şərq”in məlumatına görə, o, X.Şuşalıdan uşaq pulu alıb almadığını soruşub. Yox cavabı alan aparıcı bunları söyləyib: ”Milli Məclisdən bir nəfəri dəvət edəcəm. Baxın, dörd uşaq anasıdır. Toy və şadlıq məclisləri yoxdur. Bəs uşaqları necə saxlasın? Parlamentdə yalnız iclasa getmək lazımdır? Gəlsinlər, burada müzakirə edək. Bu veriliş xalqındır. Deputatları da xalq olaraq biz seçmişik. Ona görə onlara millət üçün sualların var”.

Xuraman Şuşalı isə uşaq pulu verilməsinin tək özünə görə deyil, bütün valideynlər üçün yaxşı olacağını deyib.

**Samirə**

## Produser onları duet ortağı kimi görmür

“Təranə xanım səhnədə qalsın, Musa getsin”



**Prodüser Təranə Səmədova Azad Azərbaycan tele-kanalının ”7 canlı” verilişində qonaq olub.**

Bu zaman aparıcı ona şou əhlindən bir neçə nəfərin fotosunu göstərərək suallar ünvanlayıb.

”Şərq” xəbər verir ki, prodüserə Təranə və Musa cütlüyünün fotosu da təqdim olunub. T.Səmədova onlar haqqında bunları söyləyib: ”Təranə xanım səhnədə qalsın, Musa getsin. Münasibətləri davam etsin. Amma duet ortağı kimi fikir bildirirəm. Bu mənim subyektiv fikrimdir”.

*Qeyd edək ki, illər öncə Təranə Səmədova və Musa Musayev arasında münaqişə yaşanıb.*

**Samirə**

## Pərvinin yalanı üzə çıxdı



**Tanınmış aktrisa Pərvin Abıyevanın yalanı üzə çıxıb.**

Yenisabah.az xəbər verir ki, son vaxtlar sürətlə çəki itirən aktrisa bunu arıqlama dərmanlarına ”borclu” olduğunu etiraf edib.

Belə ki, sosial şəbəkə hesabında görüntülərini paylaşan 30 yaşlı Pərvin arıq qalmağının səbəbinin dərman olduğunu bildirib:

”Məndən tez-tez necə belə arıq qalmağımın sirrlərini soruşurdunuz. İstəyirəm sizə bir məhsul məsləhət görüm. Bu kapsullarla siz yeyərək arıqlaya bilərsiniz. Sizə bu məhsulla arıqlamağı tövsiyə edirəm”.

*Xatırladaq ki, P.Abıyeva bir müddət əvvəl efirlərin birində qabırğalarını çıxartması ilə bağlı gəzən söz-söhbətlərə aydınlıq gətirmişdi. O, heç bir əməliyyat keçirmədiyini, dieta və mütəmadi idmanla formada qaldığını demişdi.*

*Qeyd edək ki, son illər bu tip arıqlama dərmanlarının satışı Azərbaycanda həyata keçirilir və bir sıra məşhurlar tərəfindən həm istifadə edilir, həm də sosial şəbəkələrdə reklam olunur. Həkimlər isə insanları ümumiyyətlə, bu tip vasitələrdən uzaq durmağa çağırır, onların tərkibində müxtəlif zərərli maddələrin ola biləcəyini vurğulayırlar.*

## “Aygün Kazımovanı İlhamə Quliyeva öyrətmişdi”

Elza Seyidcahan illər əvvəl yaşanan qalmaqaldan bəhs edib



**Əməkdar artist Elza Seyidcahan illər əvvəl Xalq artisti Aygün Kazımova ilə açılışlardan birində yaşanan qalmaqaldan bəhs edib.**

Müğənni bu haqda ”Dəyişən cavab” proqramında danışıb. O, illərdir dillərdən düşməyən ”Mənə tortu Allah versin” sözünə aydınlıq gətirib:

”Onu İlhamə Quliyeva öyrətmişdi. Demişdi ki, Elzaya tort vermə. Diqqətçil, ayıq insanam. Arzu edirəm ki, mənə tort verməyən, övlad toyunda tort kəssin, hamıya paylasın. Şükür, balalarımın toyunda, nəvələrimin ad günündə tort kəsmişəm. Ona da bunu diləyirəm. Mənə haqsızlıq edənləri bağışlayıram, unuduram. Tapançanı başıma dirəsəydilər mən elə etməzdim. Sən nə qədər acizsən ki... Nədən qorxursan? O hərəkəti heç vaxt etməzdim. Cavab verdim ki, ”Tortu mənə Allah versin”. İndi məzəyə çeviriblər. Məzə deyildi, başa düşən üçün cavab idi. Allahdan arzu edirəm ki, mənə gətirilən o tortlardan mənə qarşı haqsız olan, sevməyən insanlara versin”.

## Manaf Ağayev geyim tərzindən danışıb

“Dəbdə cırıq cins şalvar olsa, mən geyinmərəm”



**Müğənni Manaf Ağayev ”Bazar düzü” verilişində qonaq olarkən geyim tərzindən danışıb.**

O bunları söyləyib: ”Dəb də, zövq də yaxşıdır. Amma dəbdə cırıq cins şalvar olsa, mən geyinmərəm. İstəyirlər mənə ”çuşka” desinlər, lakin geyinə bilmərəm. Mənə kiminsə sözü maraqlı deyil. Sadəcə xoşum gəlmir. Xarakterimə ziddir. Elə bilərəm ki, çılpaq gəzirəm, ya da başqasının şalvarını geyinmişəm”.

**Samirə**

## “Ehtiyacım olsaydı qaça-qaça gedərdim"

Afət Fərmanqızı Moskva toylarına ucuz qiymətə getmək fikrində deyil



**Müğənni Afət Fərmanqızı ”6/8” verilişində qonaq olarkən toy üçün Rusiyaya yola düşən həmkarlarından danışıb.**

”Şərq” xəbər verir ki, müğənni qonşu ölkədən ona da dəvətlərin gəldiyini söyləyib: ”Əvvəlkindən bir qədər də artıq qiymət deyirəm. Çünki qabaqlar burdan Moskvaya getmək, Tovuza getməkdən daha asan idi. Amma indi Türkiyəyə uçmalısan, sonra Rusiyaya yola düşməlisən, 3 gün vaxt aparır. Çox əziyyət çəkirəm. Bu üzdən ödənişi artırdım. Onlar da qayıdır ki, axı orada toy yoxdur. Azərbaycandan gələn müğənnilər də aşağı qiymətə oxuyurlar. Məsələn, 3 minə gedən 1000-lə razılaşır, yaxud da normal vaxtlarda 2 minə oxuyan 500-ə ”hə” deyir. Mən də söyləyirəm ki, onda həmin müğənniləri çağırın. Belə də ki, ehtiyacım yoxdur. Bəlkə də ehtiyacım olsa, qaça-qaça gedərdim”.

**Samirə**

# Bayquş uğursuzluq və ölüm xəbərçisidirmi?






*Lakin tarixi incələdikdə qədim türklərin bayquşa böyük üstünlük verdiyi məlum olur*

(Əvvəli səh: 16-da)

Bayquşun ana ilə eyniləşdirilməsinin səbəbi isə bu quşun balalarını əsl ana fədakarlığı ilə bəsləməsidir. Balalar ana bayquşun başı üstünə çıxır, yuvaya atlanırlar.

Bu zamansa balaların dırnaqları ana bayquşun gözünə batır, gözlərini kor edir. Lakin bayquş balalarına görə gözlərindən keçir. Bayquşun bu fədakarlığı ana fədakarlığının ən gözəl nümunəsidir. Ona görə də bayquş həm də "ana quş " adı alıb. Bayquşun müdrikliyi də yenə türk şamanlığından gəlir. Şamanlar geyimlərində bayquş pəncələrindən istifadə edib, papaqlarına bayquş tükü taxarmışlar. Türk folklorunda atalar sözü var: bayquşun qisməti ayağına gələr. Bunun da maraqlı tarixi var. Deyilənə görə, Allahın izni ilə bütün canlıların dilini bilmək üstünlüyünə malik Süleyman peyğəmbər bayquşu mükafatlandırıb və ona "sən bundan sonra daha qida axtarmayacaqsan" deyib. Odur ki, qidası bayquşun önünə gəlir. Bayquşun uğursuzluq və ölüm xəbərçisi olması inancı bəs hardan qaynaqlanır? Bunu belə izah etməyə çalışırlar ki, bayquşun gözləri qaranlıqda parıldayır deyə, böcəklər, kiçik həşəratlar bu işığa doğru gedir, nəticədə isə bayquşun ovuna çevrilirlər. Yəni bayquşun olduğu yer ölüm məkanıdır. Lakin bu, əsaslı izah hesab edilmir. Bu anlayışın elmi və dini əsası olmadığından xurafat, uydurma hesab edilir. Eynilə qara pişiyin uğursuzluq rəmzi olması kimi. Osmanlı tarixində bayquşun özünəməxsus yeri olub. Türk memarlığının rəmzi hesab edilən Memar Sinan inşa etdiyi camelərdə bayquş fiqurundan tez-tez istifadə edib. Bunun bir səbəbi də türk mədəniyyəti ilə yanaşı, qədim Misir və yunan mədəniyyətlərində də bayquşun müdriklik rəmzi hesab edilməsidir. Memar Sinan Universitetinin loqosu da bayquşdur.

**Məlahət Rzayeva**

## Peyklə daha izləmək olmur

### Dünyanın ən böyük buzlağı əriyib, görünməz oldu



**Dünyanın ən böyük A68 buzlağı əriyərək yox olub.**

"Şərq" xarici mətbuata istinadən xəbər verir ki, dünyanın ən böyük buzlağı A68 tamamilə əriyib.

ABŞ Milli Buz Mərkəzi illər öncə dünyanın ən böyük buzlaq dağı kimi tanınan A68-nin parçalara ayrıldığını açıqlamışdı.

Antarktidada 2017-ci ildə təxminən 6000 km2 ərazini əhatə edən A68 buzlağı var idi. ABŞ Milli Buz Mərkəzinin verdiyi açıqlamaya görə, dünyanın ən böyük buzlağı olan A68 buzlağını artıq peyk vasitəsi ilə izləmək mümkün deyil.

**Aynurə**

**Elan**

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin qeyri-kommersiya hüquqi şəxsinin dövlət qeydiyyatı haqqında "Azərbaycan Türk ocağı" ictimai birliyinin 30 iyun 2020-ci il tarixli qeydiyyat nömrəsi 1120-Q73-3841 olan şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

"Zəfər qalası" qəzetinin baş redaktoru Natella Asena, Akif Qurbanov, "Azərbaycan" nəşriyyatının baş direktoru Ağabəy Əsgərov cənabına anası

**Qönçə xanımın**

vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət etsin!**

## Maykl Ceksonun evindəki heykəllər 4 milyona satılır





**Əfsanəvi müğənni Maykl Ceksonun ABŞ-ın Kaliforniya ştatındakı "Neverland" adlı malikanəsindəki heykəllər hərraca çıxarılıb.**

Axşam.az xəbər verir ki, bu barədə "TMZ" nəşri məlumat yayıb. Tuncdan hazırlanan 28 ədəd heykəli kolleksionerlərdən biri 2 milyon 500 min dollara (təxminən 4 milyon 250 min manat) satışa çıxarıb.

*Qeyd edək ki, 1100 hektar torpaq sahəsi olan malikanənin içində zoopark, lunapark, basketbol meydançası, tennis kortu, hovuz, kinoteatr zalı və 20-yə yaxın bina var. Villanı ötən il sənətçinin milyarder dostu Ron Byorkl 22 milyon dollara alıb.*

## "Azercell Telekom" MMC-yə yeni prezident təyin olunub

*Zərinə Zeynalova "Azercell Telekom" MMC-nin prezidenti vəzifəsinə təyin edilib*



Zərinə Zeynalova Birləşmiş Krallığın Nottingem Trent Universitetinin İnsan Resurslarının İdarəedilməsi və İnkişafı üzrə diplomuna malikdir, ABŞ-ın Texas A&M Universitetinin İcraedici Rəhbər üzrə İnkişaf Proqramının məzunudur.

O, İnsan Resurslarının İdarəedilməsi və İnkişafı üzrə Akkreditə Olunmuş İnstitutun (CIPD) üzvüdür. Azərbaycan Tibb Universitetinin bakalavr pilləsi üzrə məzunudur.

Z.Zeynalova dünyanın müxtəlif coğrafi bölgələrində 25 ildən artıq idarəetmə və təşkilati inkişaf üzrə peşəkar təcrübəyə malikdir. O, 20 il müddətində BP şirkətinin Azərbaycan, Birləşmiş Krallıq və ABŞ ofislərində müxtəlif rəhbər vəzifələrdə fəaliyyət göstərib. Həmçinin "PricewaterhouseCoopers" (PwC) və "Pasha Construction Group" şirkətlərində rəhbər vəzifələrdə işləyib.

*Qeyd edək ki, "Azercell Telekom" MMC-nin öncəki rəhbəri Vahid Mürsəliyev müqavilə müddəti bitdiyi üçün tutduğu vəzifədən ayrılıb.*

*Lider mobil operatorun yeni prezidentinin əsas prioriteti Azercell-in kommunikasiya üzrə fəaliyyətinin inkişafı ilə yanaşı Azərbaycanda rəqəmsal transformasiyada qabaqcıl mövqeyini təmin etmək olacaq.*

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**

Baş redaktor: **Akif Aşırlı**
Baş redaktorun ı müavini: **Yusif Nəzərli**
Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı
**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
**www.sherg.az**
e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı.
**Telefon: 447-32-41**
**538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 697

# Kral göstəriş verdi

## Siam əkizlərini Səudiyyə Ərəbistanında əməliyyat edəcəklər



**Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləzizin göstərişi ilə Yusif və Yasin adlı yəmənli siam əkizlərinin tibbi müayinə və cərrahiyyə əməliyyatı Ər-Riyadda keçiriləcək.**

Bu barədə rəsmi SPA informasiya agentliyi məlumat yayıb. Kralın göstərişinə əsasən, siam əkizləri və onların valideynləri Kral Salman Humanitar Yardım və Bərpa Mərkəzinin vəsaiti hesabına yaxın günlərdə Ər-Riyada gətiriləcək. Əkizlər krallığın ən yaxşı cərrahları tərəfindən əməliyyat olunacaq. Bundan başqa, Mavritaniyada olan siam əkizlərinin də cərrahiyyə əməliyyatı üçün Səudiyyə Ərəbistanına gətiriləcəyi bildirilir.

# Vaxta da qənaət olacaq

## Türkiyənin ən uzun körpüsü istifadəyə verildi



**Türkiyədə Hasankeyf-2 körpüsünün açılışı olub.**

"Şərq" "Habergloba"a istinadən xəbər verir ki, Prezident Rəcəb Tayyib Ərdoğan körpünün açılışında iştirak edib. O, çıxışında körpünün iqtisadi əhəmiyyətindən danışıb. Həmçinin bu tikilinin vaxta qənaət olacağı vurğulanıb. 1001 metrlik Hasankeyf-2 Türkiyənin ən uzun körpülərindəndir.

**Kənan**

# Koronadan çox uzaqlara qaçdı

## Meşədə ağacların gövdəsində birnəfərlik ev tikdi



**Türkiyədə 51 yaşlı qadın koronavirusdan qorunmaq üçün maraqlı yola əl atıb.**

"Şərq" Türkiyə mətbuatına istinadən xəbər verir ki, 51 yaşlı Kadir Aksoy meşədə ağacların gövdəsində tək nəfərlik evlər inşa edib.

Evlərin hündürlüyü 3 metrdən 5 metrədəkdir. Aksoy açıqlamasında bildirib ki, bununla o, həm pandemiyadan qorunur, həm də təbiəti seyr edir. O bildirib ki, hər kəs ruhunu dinləndirəcək belə yer düzəltməlidir.

**Aynurə**

# Çoban özü də təəccüblənib

## İt 7 balası ilə yanaşı quzuya da süd analığı edir





**Türkiyədə maraqlı hadisə yaşanıb.**

"Şərq" xəbər verir ki, çoban Sezer Çubukun iti 7 balası ilə yanaşı, yeni doğulmuş quzuya süd analığı edir.

Çoban Sezer bildirib ki, yeni doğulmuş quzuya anasının südü çatmadığı üçün süd verməyə başlayıb. Lakin bir müddətdən sonra quzusunun itdən süd içdiyinin şahidi olub. O əlavə edib ki, itin quzuya qarşı münasibəti normaldı. O, bu durumdan təəccübləndiyini ifadə edib. Çubuk quzuya Kezban adını qoyub.

**Aynurə**







# 2,5 milyard dollar sərvəti var

## *Suyu, kanalizasiyası olmayan ucqar bir kənddə yaşayır*



**Sridhar Vembu minlərlə insanın çalışdığı 2.5 milyard dollarlıq bir şirkətin qurucusu və direktorudur. 1996-cı ildə Sridhar və qardaşları ABŞ-da "Zoho" adlı şirkətlərini qurublar.**

"Şərq" türk mediasına istinadən bildirir ki, Vembu ABŞ-da 30 il yaşadıqdan sonra Hindistanın cənubundakı ucqar bir kənddə yaşamağa başlayıb.

O, işlərini suyu, yolu və kanalizasiyası olmayan bu kənddən yönləndirir. S.Vembu BBC-yə verdiyi açıqlamada qeyd edib ki, kəndin geniş düyü tarlaları və dördbeş küçəsi var. Kənddə ən vacib vasitə olan internet bağlantısı mövcuddur. Sridhar yüksək sürətli fiber optik internet bağlantısı əldə etməyi bacararaq, işləməsi üçün ən vacib infrastrukturu yaradıb. Əhalisi iki mindən az olan kənddə asfalt yol olmadığı kimi, kran suyu və kanalizasiya yoxdur.

*Niyə bu kənd?*

Sridhar Hindistanda anadan olub. O, məktəb tətillərində valideynlərinin kəndində keçirdiyi günlərə həsrət olduğunu söyləyib. ABŞ-a təhsil almaq üçün yollanan Vembu hər zaman Hindistanda kənddə yaşamaq xəyalları qurmuş.

**Yeganə Bayramova**

# Bayquş uğursuzluq və ölüm xəbərçisidirmi?

## Lakin tarixi incələdikdə qədim türklərin bayquşa böyük üstünlük verdiyi məlum olur





**Adı üstündədi bu quşun; Bayquş - Bayquş. Əsl türk sözüdür. Dilimizdə bəy sözü hansı anlamı verirsə, bəzən "meşənin bəyi" adlandırılan bayquşun kökündəki "bay" kəlməsi də eyni anlamı daşıyır.**

Əsil, zəngin, vüqarlı, soy-köklü... Qısası, Bəy ki Bəy! Amma nədəndir görəsən, bu cür sanballı ad sahibi quş nağıllarda, əfsanələrdə, mifologiyada, hətta el arasında da bəzən bədbinlik, kədər, uğursuzluq rəmzi kimi canlandırılır? Dahi Nizamidən bilirik; "Bayquşların söhbəti"ni. "Qızı"na "oğlan evi"nin kefi istədiyi qədər xarabalıq cehiz verə biləcəyini deyən "ata" bayquşu məktəb illərindən "tanıyırıq". Elə bilirik, bayquşların məskəni xarabalıqlardır. Bayquş səsi uğursuzluğun əlaməti sayılır. Ağlağan körpələrə də bəzən "bayquş kimi ulama!" çığırırlar. Mifologiya, əsatirlər öz yerində, bəs əslində bayquş necə bir canlıdır?

*"Şərq" Türkiyə mediasına istinadən bildirir ki, türk mifologiyasında aslan, qurd, qartal kultları məlumdur.* Bu kultlar millətin təfəkkür tərzini inkişaf etdirmiş, millətin formalaşmasında əhəmiyyətli rol oynamışdır. Türk mifologiyasında bayquşun yeri hardadır? Hansı səviyyədədir? Baxaq. Bayquşa çox da yaxşı gözlə baxılmır. Lakin tarixi incələdikdə qədim türklərin bayquşa böyük üstünlük verdiyi məlum olur. Qədim türklər bayquşu "Ugi" adlandırırdı və onu hər elmə bələd, müdrik quş, həmçinin fədakarlığın rəmzi hesab edirdilər. Hətta bu quş o qədər dəyər qazanıb ki, qırğız xalqının möhtəşəm "Manas" dastanında "bayquş ana" obrazı da yer alıb. Bu da bayquşun türk xalqları üçün necə böyük dəyər daşıdığını göstərir.

*(Davamı səh: 15-də)*





# Yazın dəbi mavi köynəkdir

**Boş və rahat kəsim, standart uzunluq və səma çalarları baza geyimlərinin təməlidir. Odur ki, bu gün müasir qadın qarderobunu açıq mavi uzunqollu köynəksiz təsəvvür etmək çətindir.**

Açıq mavi köynəklər yaz trendləri arasında xüsusi diqqətə layiqdir. Əvvəllər mavi köynək yalnız ofis geyimi sayılırdı, bu günsə onlarla fərqli obrazların yaradılmasında iştirak edir. Onu həm ofis, həm idman, həm də çimərlik geyimləri ilə uyğunlaşdıra bilərsiniz. Universal tonu onu istənilən rənglərlə sintez etməyə imkan verir. Lakin mavinin bütün çalarlarının ən mükəmməl uyğunluğu parlaq qırmızı, zoğalı və qəhvəyi ilə vəhdətindən əldə edilir. Unutmayın ki, bu, istifadə müddəti olmayan bir geyimdir, heç vaxt dəbdən düşməyəcək və hər vəziyyətdə işinizə yarayacaq.

Mavi köynəyin əsas pərəstişkarlarından biri Yulia Pelipasdır. Ukraynalı stilist onu vodolazka, jilet və kostyumlarla birləşdirir. (publika.az)

Bloger Leandra Medine də əla ideyalar nümayiş etdirir, onu ipək üst, pijama şalvar və yumşaq qum rəngli mokasenlərlə geyinir.